# QARABAĞ AZƏRBAYCANDIR!



“Dəmir yumruq” Qərbi Azərbaycana qayıdışı da bərpa edəcək

11



SƏS

№ 240 (6681) 29 dekabr 2022-ci il. Qiymәti 60 qәpik

# Vətəndaş məmnunluğu yaradan DOST mərkəzləri




2

# Ermənistanın qarşısındakı üç yol: SÜLH, PARÇALANMA VƏ SÜQUT

7



*Rəsmi İrəvan öz siyasəti ilə sanki Moskvanı ələ saldığını düşünür. Rusiya ilə danışıqlarda Paşinyan və onun hakimiyyəti sarkazmları az qala ənənə halına çevirmək niyyətindədir və bundan sonrakı münasibətlərini bu şəkildə qurmaq arzusundadır.*

## Çin - yeni dünya lideri?



8

## Senatorlardan Makrona çağırış: Azərbaycana hərbi müdaxilə et (?!)



13

## Küçədən yığılan milyonlar



10

## Şəhid ailələrinə gəlir vergisi üzrə güzəştlər veriləcək

2023-cü il üçün Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdən biri də şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının vergi tutulmalı olan aylıq gəlirləri...



14

10



## Keçmiş prezident qızının 1 milyard dollarlıq əmlakına həbs qoyuldu

Anqolanın Ali Məhkəməsi maliyyə cinayətlərində şübhəli bilinən Anqolanın keçmiş prezidenti Xose Eduardo duş Santuşun böyük qızı İzabel duş Santuşun 1 milyard dollar dəyərində əmlakına həbs qoyulması barədə qərar çıxarıb.

## Yeməkdən dərhal sonra yorğunluğun səbəbi



16

# Vətəndaş məmnunluğu yaradan DOST mərkəzləri

***Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirən, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək istiqamətində əhəmiyyətli dəyişikliyə səbəb olan DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir.***

“ASAN xidmət”dən sonra Azərbaycanın yeni brendinə çevrilən DOST mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə Azərbaycan bu sahədə də öz sözünü demiş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, DOST mərkəzlərinin yaradılması sosial siyasətimizin mahiyyətini göstərir.

Ölkəmizdə bu və ya digər lahiyələrin reallaşması onu göstərir ki, ölkəmizin gələcəyi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, güzəranının yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər insanların rifahının daha da yüksəlməsinə yönəldilib. Ölkə başçısının ”Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsidir. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Bu gün ölkəmizdə ”ASAN xidmət” mərkəzləri kimi DOST mərkəzlərinin də sayı artır.







### VƏTƏNDAŞLARIN XİDMƏTLƏRDƏN MƏMNUNLUQ SƏVİYYƏSİ 98,2 FAİZDİR

Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyi bu gün məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 12 istiqamət üzrə 153 xidmət göstərir. Bu günədək istifadəyə verilmiş DOST mərkəzlərində ümumilikdə 1 milyon 250 mindən çox şəxsə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,2 faiz təşkil edir.

Dekabrın 28-də daha bir DOST mərkəzi istifadəyə verildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib. Dördmərtəbəli mərkəzin ümumi sahəsi 4405 kvadratmetrdir. Mərkəz modern və konstruktiv üslubda layihələndirilib, mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir. Mərkəzdə 120 nəfərə yaxın işçi heyəti çalışacaq və ”Könüllü DOST” proqramı üzrə 50 nəfər könüllü fəaliyyət göstərəcək. Burada gün ərzində 650-700 vətəndaşa xidmətin göstərilməsi nəzərdə tutulur.




*5 saylı DOST Mərkəzində gün ərzində 650-700 vətəndaşa xidmət göstəriləcək*



### 379 ŞƏXS YÜKSƏK TEXNOLOGİYALI 394 ƏDƏD MÜASİR 4-CÜ NƏSİL PROTEZLƏ TƏMİN EDİLİB

Əlbəttə ki, postmüharibə dövründə də sosial sahədə, o cümlədən DOST mərkəzləri vasitəsilə həyata keçirilən tədbirlər dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir. Eyni zamanda, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı müasir protezlərlə təmin olunmasına başlanıb. Ötən dövrdə artıq 379 şəxs yüksək texnologiyalı 394 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.

Haqqında məlumat verilən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində isə şəhid ailələri üzvlərinin, müharibə əlillərinin və onların uşaqlarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrin sırasından istedadlı şəxslərin müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün imkanlar yaradılıb.

Beləliklə, istifadəyə verilən növbəti DOST Mərkəzi sosial xidmətlər sahəsində daha böyük ərazini və daha çox əhalini əhatə etməklə keyfiyyətli xidmətin coğrafiyasının genişlənməsinə şərait yaradacaq.

### VƏTƏNDAŞLAR BÜTÜN XİDMƏTLƏRDƏN “BİR PƏNCƏRƏ”DƏN FAYDALANIR

Ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri hər bir vətəndaşda məmnunluq yaradır. Vətəndaşların böyük etibarını qazanıb. Sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması Azərbaycanın yeni brendinin spesifik cəhətləri sırasındadır. Göründüyü kimi, davamlı inkişafı və spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycanın uğurlu inkişafı təmin edilib, həyata keçirilən siyasi-iqtisadi idarəçilik modeli nəticəsində, ölkəmizdə bütün sahələrdə uğurlar və yeniliklər əldə olunub. DOST Agentliyi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, ”bir pəncərə”dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST konsepsiyası çərçivəsində istifadəyə verilən növbəti mərkəzdə müxtəlif xidmətlərdən yararlana biləcəklər. Fəaliyyət göstərən DOST mərkəzləri vətəndaşların bütün xidmətlərdən ”bir pəncərə”yə müraciət etməsinə və ”bir pəncərə”dən faydalanmasına imkan verir.

*Nəzakət ƏLƏDDİNQIZI*

TƏHLİL

# Zəfər zirvəsindən son 19 ilə baxış



***Azərbaycanın müasir tarixində xalqın ədalətli seçimini, gələcək taleyini müəyyən edən əlamətdar günlərdən biri də 2003-cü ilin 15 oktyabr günüdür. 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verməklə Heydər Əliyevin siyasi kursuna sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Bəli, məhz bu gün ulu öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz düz 19 il öncə - 2003-cü ilin oktyabrın 15-i Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə daha da möhkəmləndirilir, onun əbədiliyi təmin edilir.***

### 2003-CÜ İL OKTYABRIN 15-İ ÖLKƏMİZİN İNKİŞAFINDA YENİ BİR MƏRHƏLƏ

Bəli, xalqımız. 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verməklə Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına öz səslərini vermiş oldu. Beləliklə, Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. Bu siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Bəli, ulu öndərin başa çatdıra bilmədiyi taleyüklü məsələlər bu gün reallaşmaqdadır. 2003-cü ildən bu günə qədər Azərbaycan sürətli inkişaf dövrü yaşayır və ümummilli lider Heydər Əliyev siyasəti davam etdirilir. Və bu 19 il ərzində, ulu öndər Heydər Əliyevin demokratik-hüquqi və dünyəvi dövlət quruculuğuna yönəldilmiş müstəqillik siyasətini qətiyyətlə həyata keçirən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələri həyata keçirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. 5 ildə gördüyü işlər Onun 2008-ci il 15 oktyabr prezident seçkilərində 88,73 faiz səs qazanmasına imkan yaratdı. 2013 və 2018-ci il prezident seçkilərində də qələbəsini təkrarlaması hər bir vədini konkret əməli işdə təsdiqləməsi ilə şərtləndirdi. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Bəli, bu gün Azərbaycan dünyada güclü, qüdrətli ölkə olaraq hər bir sahədə sözünü deyir. Məhz Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2022-ci illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Güclü dövlət iqtisadiyyatı ilə fərqlənir. Ən əsası isə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməkdədir. Belə ki, Xəzərin Azərbaycan sektorunda ”Azəri”, ”Çıraq” və ”Günəşli” yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolu olduğunu bir daha təsdiqlədi. Böyük tarixi hadisə olan Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini bibaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olundu. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olan və əməli addımları ilə təsdiqləyən cənab İlham Əliyevin uzaqgörən siyasətinin əsas məqsədlərindən biri, ən ümdəsi ərazi bütövlüyümüzün bərpası idi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağımızın azadlığına yaxınlaşdırırdı. Son 19 il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız ”bir qarış torpağımızı belə heç kəsə verən deyilik” xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır! ”Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi”-deyən Müzəffər Ali Baş Komandan bu gün apardığı uğurlu, diplomatik siyasəti ilə sübut etdi: ”Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!”. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: ”Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”. Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi ”Qarabağ Azərbaycandır və nida işarəsi”-söyləyən Prezidentimiz son 19 ildə - hər zaman olduğu kimi, bu dəfə də vədinə əməl etdiyinin sübutudur. Ən əsası isə, noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazılan tarixidir.

### REALLAŞAN VƏDLƏR...

Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən Azərbaycan həlli müşkül görünən bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkə hələ yeni-yeni dirçəlirdi, işsizlik, məcburi köçkünlərin acınacaqlı halı, bölgələrin inkişafdan geri qalması, əhalinin sosial vəziyyəti ciddi narahatlıq doğururdu. Prezidentin ilk vədi bu oldu: ölkədə yüz minlərlə yeni iş yeri yaradılacaq. Ötən illər ərzində 2 milyondan çox iş yeri yaradıldı. İşsizlik səviyyəsi 40 faizdən 5 faizə endi. Ölkə Prezidenti deyirdi: ”Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq”. Çox keçmədən axırıncı çadır düşərgəsi ləğv olundu.Ən əsas məsələ isə bütün dünyanı bürüyən COVID-19 pandemiyasıdır ki, bu gün Azərbaycan pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Belə ki, Azərbaycanda koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Azərbaycanda bütün sahələrdə sabitlik təmin edildi, əhalinin məşğulluq problemləri müsbət həllini tapdı və sadə vətəndaşın rifah halı iqtisadi inkişafının əsas prioritetlərindən birinə çevrildi. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə vaxtında aparılan düzgün siyasət və atılan zəruri addımlar tektonik fəlakət zamanı öz sözünü deyə bildi.

### “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: ”Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”. Bu 44 gün həm də Ulu Öndər Heydər Əliyevin Prezident İlham Əliyev haqqında dediyi ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” fikirlərin hər keçən gün bir daha öz təsdiqini tapır. Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi ”Qarabağ Azərbaycandır və nida işarəsi”-söyləyən Prezidentimiz son 19 ildə - hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur. Ən əsası isə, noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazılan tarixidir. Beləliklə, güclü xalq, dövlət başçımız İlham Əliyev cənabları hər dəfə Prezidentt seçilməklə güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi. Beləliklə də, 2003-2022 ci il tariximizin inkişafla başlayıb zəfərlə davam edən ən qüdrətli mərhələsi olmaqla Azərbaycan bundan sonra da növbəti illərdə də möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Anti-Rusiya siyasəti Ermənistanın açıq mövqeyinə çevrilib

## News.am: "Ermənistanın dövlət kanallarında rusofobiyadan danışılır"






Monoetnik Ermənistanda digər millətlərə qarşı dözümsüzlük hallarının mövcudluğu artıq danılmaz fakta çevrilib. Belə ki, bu ölkədə hansı yönlü siyasi quruluşların iqtidarda olmalarına baxmayaraq, qeyri-tolerantlıq, ksenofob baxışlar və irqçilik tendensiyaları ənənəvi xarakter daşımaqdadır. O da əbəs deyil ki, bu kimi faktları elə Ermənistanın özündə də açıq-aşkar etiraf edirlər. Üstəlik, dövlətin rəsmi, eləcə də hakimiyyətyönlü media qurumlarında sözügedən mövzular aşkar təbliğat maşınına çevrilir.

Hələ oktyabrın əvvəlində, Ermənistanın baş naziri Nikol Paşinyanın Praqa sammitinə səfəri zamanı erməni mediasının qərbyönlü kurs tərəfdarları arasında aktiv şəkildə anti-Rusiya meyilləri artmağa başlamışdı

SİA xəbər verir ki, news.am nəşrinə mövzu ilə bağlı fikirlərini şərh edən erməni media-eksperti Tiqran Koçaryana görə, dövlət və hakimiyyətyönlü telekanallarında praym-taym xarakterli çıxış edən bir çox ekspertlər anti-Rusiya mövqelərinə malikdirlər. Koçaryan xatırladıb ki, hələ oktyabrın əvvəlində, Ermənistanın baş naziri Nikol Paşinyanın Praqa sammitinə səfəri zamanı erməni mediasının qərbyönlü kurs tərəfdarları arasında aktiv şəkildə anti-Rusiya meyilləri artmağa başlamışdı. Onların arasında ”Ermənistan Avropa Partiyası”, ”Respublika”, ”Xristian-Demokratik Partiyası”, ”Suveren Ermənistan” və başqa siyasi təşkilatlar yer alıblar.

Tiqran Koçaryan qeyd edib ki, bu partiyaların bir qismi parlamentdənkənar Məşvərət Şurasına daxildirlər və onların üzvləri mütəmadi olaraq ölkənin baş naziri Nikol Paşinyanla görüşlər keçirirlər. SİTAT: ” Oktyabrın 1-də gün ərzində Ermənistanın ictimai TV-də yayımlanan ”Petros Kazaryanla müsahibə” verilişindəki praym-taymda 14 nəfər anti-Rusiyayönlü ekspertlər, 10 nəfər Paşinyan hakimiyyətinin təmsilçiləri, mülayim siyasi baxışı olan müxalifətçi Xosrov Arutyunyan, 1 nəfər müxalifətdən olan eks-deputat Artur Kazinyan, Rusiyanın İqtisadi inkişaf nazirliyinin nazir müavini və 1 nəfər erməni universitetlərindən birinin rektoru iştirak ediblər”.

Adıçəkilən ekspert İctimai kanalın ”İctimai müzakirə” adlı verilişində 24 nəfər dəvət almış ekspertlərin 19-nun anti-Rusiya baxışlı olduqlarını bildirib. Oktyabrda yayımlanan ”Fərqli fikirlər” adlı digər verilişdə isə 18 adamdan 11-i anti-Rusiya mövqeli olublar.

”Bu adamlar rəsmi kanallarda və ictimai kanalda çıxış edirlərsə, demək, hakimiyyətlə razılaşdırılıblar”

Tiqran Koçaryan daha bir maraqlı fakta toxunub. Onun sözlərinə görə, Ermənistan parlamentinin spikeri Alen Simonyanın arvadına məxsus ”Free News” telekanalında çıxış edən 17 ekspertdən 14 nəfərində aşkar anti-Rusiya baxışları seçilib.

”Bu, hələ ki, son bir ayda olanlardır və deyəndə ki, Ermənistanda rusofobiya yoxdur, yaxud bu, heç cür mümkün deyil, onda belə iddialar doğru sayıla bilməz. Ona görə ki, bu adamlar rəsmi kanallarda və ictimai kanalda çıxış edirlərsə, demək, hakimiyyətlə razılaşdırılıblar”, deyə erməni media-eksperti bildirib və sonda qeyd edib ki, anti-Rusiya xarakterli ekspertlərin sonuncu bəyanatlarında KTMT-dən və Avrasiya İqtisadi İttifaqından çıxmaq çağırışları var, üstəlik burada Rusiya prezidentinin faşist Almaniyasının rəhbəri ilə bənzədilməsi də yer alıb.

***Rövşən RƏSULOV***

# “Bu il “Media haqqında” qanunun qəbulu ən mühüm hadisədir”



***“Artıq ikinci ildir ki, mətbuat, cəmiyyət və dövlət olaraq bu ili də qalib ölkə ruhunda başa vururuq. Təbii ki, 2022-ci ildə media sahəsini yaxından maraqlandıran, onun fəaliyyətinə birbaşa təsir göstərən bir sıra mühüm qərarlar qəbul edildi, hadisələr yaşandı". Bunu "Səs" qəzetinə açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.***

Onun sözlərinə görə, media təmsilçilərinin işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlərinin təşkili, burada aparılan böyük quruculuq işlərinə şahid olmağımız istər cəmiyyətimiz, istərsə də mediamız üçün xüsusi əhəmiyyətə malik idi: ”Bu il ”Media haqqında” yeni qanunun qəbulu ən mühüm hadisə sayılır. Beləliklə, uzun illərdən sonra Azərbaycan mətbuatının gələcək inkişafının yol xəritəsi də adlandıra biləcəyimiz peşəkar səviyyədə hazırlanmış çox mühüm qanun layihəsi qəbul edildi. Bu sahədəki nizamsızlıq ortadan qaldırıldı. Peşəkar jurnalistika sahəsində hüquqi norma və qaydalar qüvvəyə mindi. Eyni zamanda, əvvəlki illərdə olduğu kimi 2022-ci ildə də Medianın İnkişafı Agentliyinin xətti ilə istər çap mediası, istərsə də onlayn media subyektlərinə dövlətin maliyyə dəstəyi davam etdirildi. Agentlik tərəfindən çap mediasının inkişafına dəstək məqsədi ilə ”e-köşk” layihəsinin istifadəyə verilməsi, ”metrix.az” onlayn media sayğacının tətbiqi, həmçinin vahid reystr xidmətinin yaradılması, jurnalistlərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə reallaşdırılan layihələr də bu il ərzində yadda qalan hadisələrdən oldu. Bütün bu addımlar Azərbaycan mediasının gələcək illərdə daha da inkişaf edəcəyinə, peşəkarlıq səviyyəsinin, beynəlxalq əlaqələrinin genişlənəcəyinə inamımızı artırır”.

***Gülyana***



# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib





***Dekabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının inzibatı binasında qanvermə aksiyası keçirilib. Aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 300 nəfərə yaxın YAP üzvü iştirak edib.***

Qanvermə aksiyasına Mərkəzi Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub. Toplanan qan talassemiya və irsi qan xəstəliklərindən əziyyət çəkən insanlar üçün istifadə olunacaq.

Mərkəzi Qan Bankının həkim-hematoloqu Könül Muxtarlı bildirib ki, qanvermə prosesində 18-65 yaş arasında olan şəxslər iştirak edə bilər. ”Qana həmişə ehtiyac var. Çünki qanı heç bir dərman vasitəsi əvəz edə bilməz. Ölkəmizdə bu gün talassemiya xəstəliyindən əziyyət çəkən 1500 nəfərə yaxın xəstə var. Hər hansı bir şəxs qan verməklə qana ehtiyacı olan üç xəstəyə kömək etmiş olur, onların həyatını xilas edir. Aksiyada toplanan qan talassemiya və irsi qan xəstəliklərindən əziyyət çəkən insanlar üçün böyük dəstək olacaq. Bu təşəbbüsünə görə Yeni Azərbaycan Partiyasına təşəkkürümüzü bildiririk”,- deyə həkim-hematoloq vurğulayıb.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası ənənəvi olaraq hər il qanvermə aksiyaları keçirir. Xüsusilə də, partiya Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın təşəbbüsünə qoşularaq qanvermə aksiyaları təşkil edir. YAP Mərkəzi Aparatında keçirilən növbəti qanvermə aksiyası da partiya üzvlərinin ölkəmizdə həyata keçirilən humanist tədbirlərdə fəal iştirakının daha bir göstəricisidir.

# Böyük şəhərsalma layihəsi - "Ağ şəhər"

## Prezident İlham Əliyev: "Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var"






***Ölkəmizin hər bir yerində aparılan-abadlıq quruculuq işləri onun simasını köklü şəkildə dəyişib, infrastruktur təminatı, kommunal xidmətlərin keyfiyyəti yaxşılaşıb, əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Bölgələrimizlə yanaşı, dünyanın qədim neft sənayesi mərkəzi olan paytaxt Bakı da qısa müddətdə ən iri şəhərlərdən birinə çevrilərək özünün təkrarolunmaz simasını əldə edib. Son illər Bakıda həyata keçirilən ardıcıl inkişaf prosesi şəhərimizin tarixi ilə müasirliyini özündə birləşdirərək tamamilə yeni bir simadadır.***




Əsrlər boyu müxtəlif mədəniyyətlərin, dini inancların ahəngdarlıqla qovuşaraq, mükəmməl harmoniya yaratdığı Bakı Qız Qalası, Qala Divarları, Şirvanşahlar Saray Kompleksi, məscidləri, karvansaraları və digər memarlıq abidələri ilə sirli aləmə çevrilən paytaxtımıza yeni çalarlar əlavə olunub. Bura tariximizin daş yaddaşıdır, onun hər parçası keçmişimizin əbədiləşmiş məqamlarını özündə yaşadır. Geniş vüsət alan abadlıq-quruculuq və yenidənqurma işləri paytaxtımıza yeni bir ahəng gətirib. Xüsusilə, böyük parkların, xiyabanların salınması və köhnə tikililərin sökülərək, yenilərinin inşası şəhərimizə yeni çalarlar əlavə edib. Şəhərin simasına xüsusi gözəllik verən yaşıllıqlar Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da təsirsiz ötməyib. Ekoloji fəlakət mənbəyi olan Balaxanıda, Bibiheybət neft mədənlərində, Böyükşorda aparılan işlər nəticəsini verib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Bakıda havanın keyfiyyətinin böyük dərəcədə yaxşılaşdığını diqqətə çəkərək, havanı çirkləndirən bir çox mənbələrin ləğv edildiyini bildirib: "Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları, xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıb. İkincisi, havanı və ekologiyanı böyük dərəcədə çirkləndirən "Qara şəhər" idi. indi onun yerində "Ağ şəhər" yerləşir. Bu da, böyük şəhərsalma layihəsidir. Əlbəttə, Balaxanı zibilxanası havanı, demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi ekoloji təmiz zonaya çevrilib".

### "AZƏRBAYCANDA YÜZ İLLƏRDƏN BƏRİ QARA ŞƏHƏR ADLANAN ŞƏHƏR AĞARACAQDIR, TƏMİZLƏNƏCƏKDİR, ORADA GÜL-ÇİÇƏK ƏKİLƏCƏKDİR"

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" çərçivəsində həyata keçirilən Bakı Ağ Şəhər layihəsi dünyanın qabaqcıl və müasir şəhərsalma layihələri səviyyəsindədir. "Azərbaycanda yüz illərdən bəri Qara Şəhər adlanan şəhər ağaracaqdır, təmizlənəcəkdir, orada gül-çiçək əkiləcəkdir və o, Azərbaycanın gözəl bir guşəsinə çevriləcəkdir.", - deyən Ümummilli Lider Heydər Əliyev uzaqgörəliklə söylədiyi fikirlər reallığa çevrilib. Artıq Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra tikililər, avtomobil yolları və digər infrastruktur işləri tamamlanıb. Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kvartalda görülən işlərlə tanış olub və Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub. Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən müxtəlif ölçülü küçələrin salınması və yolaltı kommunikasiya infrastruktur işləri tamamlanıb. Bunlar, əsasən Qarabağ Atları, 3-cü Şərq, 6-cı Park küçələri və bir sıra digər küçələrdir. Bununla da artıq Ağ Şəhərin Xeqani Rüstəmov küçəsindən əlavə daha iki küçəsinin Babək prospektinə rahat giriş və çıxışı təmin ediləcəkdir. Prospekt boyunca magistral su xətti, yüksək və ortatəzyiqli qaz xətləri, elektrik magistral xətlər köçürülərək Ağ Şəhər layihəsinə uyğunluğu təmin edilib.

Mərkəzi Park Kvartalı 2017-ci ildə təhvil verilmiş Paris evlərindən əlavə, 36, 20 və 8 mərtəbəli yaşayış binaları, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və ictimai iaşə obyektləri, orta məktəb, ofis və dövlət inzibati binaları, bir sıra park və yaşıllıq zonalarından ibarətdir. Qarabağ Atları küçəsinin mərkəzində səkkizmərtəbəli, müasir fasadlı yaşayış binalarının əhatəsində Qarabağ Atları Meydanı yerləşir.

### ZƏFƏRİMİZƏ HƏSR EDİLƏN QARABAĞ ATLARI HEYKƏL KOMPLEKSİ

Burada həmişəyaşıl ağaclar və kollardan ibarət landşaft salınıb. Meydanın mərkəzində Qarabağ atlarının heykəl kompleksi quraşdırılıb. Qarabağ atları heykəl kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleksin hazırlanmasına amerikalı heykəltaraş Robert Sammers cəlb olunub. Qeyd edək ki, heykəltaraş Dallas şəhərində yerləşən "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri ilə dünyada məşhurdur. Dövlət başçısının həyata keçirdiyi tədbirlər öz uğurlu nəticəsini verir. Ağ Şəhər də onlardan biridir. Həm uğurlu, həm də böyük bir ekoloji layihə kimi dünyada tanınır. Həmçinin, Bakı şəhərinin sakinləri arasında da böyük etimadla qarşılanır. Ağ şəhərin təhvil verilmiş kvartallarında artıq minlərlə sakin keyfiyyətli və müasir şəhər mühitində yaşayır. Burada layihələndirilən və tikilmiş binalar, parklar və digər ictimai yerlər Bakı şəhərinin gözəl memarlıq simasına öz töhfəsini verməkdədir. Dinamik inkişaf edərək perspektivliyi ilə iri biznesi və xarici investorları cəlb edən paytaxt, getdikcə daha çox iş və yaşayış, istirahət və əyləncələr üçün arzu edilən böyük şəhərlərdən birinə çevrilir.

Bu layihənin reallaşdırılması ilə Qara Şəhərin sənaye siması keçmişdə qalaraq yerini Bakı Ağ Şəhər adlı harmoniya və rahatlıq məkanına verərək, öz təkrarolunmaz cizgiləri ilə regionda lider olan Bakı şəhərinin yeni müasir mərkəzinə çevrilir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var".

### İRİ NEFT SƏNAYESİ OBYEKTLƏRİNİN YERLƏŞDİYİ "QARA ŞƏHƏR"

İlk neft canlanmasının mirası və uzaq keçmişin şəhərsalma tədbirlərinin nəticəsi kimi, Qara Şəhər 19-cu əsrin sonunda, Bakının şərq hissəsində yaranmışdır. Sonradan o, "qara qızılın" emal olunması, saxlanılması və nəql edilməsi üzrə fəaliyyəti yerinə yetirərək, 100 ildən artıq bir müddətdə neft sənayesində mühüm rol oynayıb. Bu ərazidə əsasən, neft zavodları yerləşirdi. Hələ 1873-cü ildə bir çox zavodların Bakıdan kənardakı boş ərazilərə çıxarılması haqqında sərəncam veriləndə həmin vaxt bu ərazidə (Qara şəhər) 100-ə yaxın zavod, ticarət müəssisələri və yaşayış yerləri tikildi. Tezliklə zavodlardan çıxan tüstü və his həmin ərazini qaraya boyadı, bu ərazini də haqlı olaraq "qara şəhər" adlandırdılar. XIX əsrin ikinci yarısında çox sürətlə inkişaf edən neft sənayesi Bakı ətrafında böyük bir ərazini əhatə edir və bu ərazidə yerləşən zavodların tüstü və hisi bütün ətrafı bürüyürdü. Şəhərin inkişafına mane olan bu cür hallarla bağlı ictimai fikirlər quberniya hakimiyyətini bu problemi həll etmək məcburiyyətində qoymuşdu. Beləliklə də, 1870-ci ildə şəhərdə və şəhərin yaşayış məhəllələrində yerləşən 147 zavodun sökülməsi barədə quberniya hakimiyyəti qərar qəbul etdi və şəhərin yaşayış məntəqələrindən 2km aralı olmaq şərti ilə boş ərazilərə köçürülməsi qərarlaşdırıldı.

Beləliklə də, 1876-cı ildə Keşlədəki otlaq sahələrində və yerli əhalinin bağ və bostan sahələrinin yerində yeni sənaye rayonu salındı. 1880-ci ildə yeni sənaye rayonunda 118-dən artıq müəssisə fəaliyyət göstərirdi. 1905-ci ildə demək olar ki, Bakının bütün iri neft sənayesi obyektləri burada yerləşdirilmişdi. Buradakı tikililərin hamısını qara his basdığından hər tərəf qapqara görsənirdi. Elə buna görə də, 1880-90-cı illərdə və o zamanlardan üzü bəri bu ərazi artıq "Qara şəhər" kimi tanınırdı. Artıq o şəhər indi "Ağ şəhər" kimi dünyanın ən müasir bir şəhərinə çevrilir.

***Zümrüd BAYRAMOVA***

# Qafqazın incisi, mədəniyyətimizin beşiyi - Şuşa




Keşməkeşli tarixi olan Şuşa 1918-20-ci illərdə ermənilər tərəfindən dəfələrlə hücuma məruz qalıb, şuşalıların qəhrəmanlıqla müdafiəsi nəticəsində və böyük itkilər hesabına şəhər ermənilərin əlinə keçməyib. 1920-1937-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs etdirilib, güllələnib və təqiblərə məruz qalıb. Şəhərin bir çox bəyləri əhalinin gözü qarşısında güllələnib. Sovet hakimiyyəti dövründə Şuşa 170 ildən artıq yerinə yetirdiyi missiyadan - bütün Qarabağın mərkəzi statusundan məhrum edilib. Bu Şuşa şəhərinə vurulmuş ən böyük zərbələrdən biri idi. 1963-cü il yanvarın 4-də isə Şuşa rayonu ləğv edilərək, Stepanakert rayonunun tərkibinə qatılıb. Tarixi mənbələrə istinadən, Nikita Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa edilib. Tarixin salnamələrinə nəzər saldıqca onun nə qədər hücum və təqiblərə məruz qalmasının şahidi oluruq. Ötən əsrin 70-ci illərindən Şuşanın həyatında yeni bir inkişaf dövrü başlayır. Ulu Öndər Heydər Əliyev tərəfindən şəhərin inkişafına xüsusi diqqət yetirilib. 1977-ci ildə Azərbaycan hökuməti iki tarixi qərar qəbul edib. Həmin qərarların yerinə yetirilməsi Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb edib. Şəhərdə yeni sənət ocaqları yaradılıb, bərpa, tikinti və yaşıllaşdırma işlərində yüksək nailiyyətlər qazanılıb. Tarixi-memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq, 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilib. 1992-ci ildə Şuşa şəhərinin ermənilər tərəfindən işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. İşğal olunmuş ərazilərdə erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

### "ŞUŞANIN - ALINMAZ QALANIN ALINMASI AYRICA BİR QƏHRƏMANLIQ DASTANIDIR"

İşğaldan azad olunan məkanlarda məscidlərin bərpası ilə bağlı müvafiq göstərişlər verilib və ilkin araşdırmalar aparılır. Ermənilər Şuşada 30 il ərizində bütün tarixi abidələrimizə qarşı dağıdıcı mövqedə olublar. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olan tarixi sarayı da dağıdıblar. Cənab Prezidentin qeyd etdiyi kimi, "Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib. Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər".

8 noyabr 2020-ci ildə Şuşa şəhəri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildi. "Şuşanın - alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır", - deyən Cənab Prezident vurğulayıb ki, Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi:"Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi". İndi Şuşa yeni dövrünü yaşayır. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Sərəncam imzalayıb. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir. Artıq Yuxarı Gövhərağa məscidi təmir edilib". Şuşamızda yenidən "Xarı Bülbül" Beynəlxalq musiqi festivalı keçirilir, Üzeyirin, Natəvanın, Bülbülün güllələnmiş heykəlləri öz məkanlarında qərarlaşıblar. Şuşa, "Cıdır düzü", "İsa bulağı" Azərbaycan musiqisinə qovuşub. Şuşa şəhərində, eləcə də işğaldan azad olunan bütün ərazilərdə olan tarixi-dini abidələrimiz bərpa olunur. Azərbaycanın mədəniyyət paytaxtı və bütün Qafqazın incisi hesab olunan Şuşa şəhərində infrastruktur layihələr icra olunur.

### "ŞUŞA 28 İL YARIM ƏSARƏTDƏ İDİ, ANCAQ ƏYİLMƏDİ, SINMADI, ÖZ LƏYAQƏTİNİ QORUDU, MİLLİ RUHUNU QORUDU, AZƏRBAYCAN RUHUNU QORUDU"

Şuşanın yeni inkişaf dövründə Heydər Əliyev Fondunun verdiyi töhfələri də qeyd etməliyik. Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Qarabağ torpağında yenidən şeir, qəzəl sədaları yayıldı, muğam səsləndi. "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı keçirildi. Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı dünyaya bir mesaj oldu. Daha sonra Şuşa Birinci Beynəlxalq Kulinariya Festivalı keçirildi və Azərbaycan xalqının qonaqpərvərliyi, bu şəhərin qədimliyi və gözəlliyi bir daha nümayiş etdirildi. Beynəlxalq Kulinariya Festivalında Azərbaycanla yanaşı, Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan olan kulinarlar qonaqları ölkələrinin təamları ilə tanış etdilər. Tədbirdə Belçika, Çexiya, Fransa, İtaliya, İsrail, Kanada, Koreya Respublikası, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələr qida sahəsi üzrə beynəlxalq ekspertlər və blogerlər ilə təmsil olundu. Festival zamanı Şuşada təkcə dünya xalqlarının təamları deyil, həmçinin müxtəlif ölkələrin maddi-mənəvi dəyərləri təqdim edildi. Şuşada Mehmandarovların malikanə kompleksində bərpa işləri aparılır. Malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir. Heydər Əliyev Fondu Mehmandarovların malikanə kompleksində, həmçinin ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlayıb. Evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb. Eyvanların və erkerlərin taxta konstruksiyalarının çürümüş hissələri bərpa olunub. Təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyasının qurulması nəzərdə tutulur. Muzeyin ekspozisiyası özündə bir şuşalının evini təcəssüm etdirəcək. Təmir-bərpa işlərinin 2023-cü ildə yekunlaşdırılması planlaşdırılır. Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidində də Heydər Əliyev Fondu tərəfindən yenidənqurma və bərpa işləri aparılır. Tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işləri 2021-ci ilin noyabr ayından başlanılıb. Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.Şuşanın tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması bu məkana xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Cənab Prezident "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu", - deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etdi.

***Zümrüd BAYRAMOVA***

# İspaniya nəşri: Avropanın Qafqazdakı dostu Azərbaycana səyahət...

***İspaniyanın "El Espanol" nəşrində Azərbaycanın coğrafi mövqeyi, beynəlxalq aləmdə artan rolu, Avropa İttifaqı ilə münasibətləri, etibarlı tərəfdaşa çevrilməsi, eyni zamanda, 2020-ci ildə 44 günlük müharibə nəticəsində işğaldan azad etdiyi torpaqlarında apardığı bərpa və yenidənqurma işləri barədə məqalə dərc olunub. Belə ki, məqalədə Rusiya ilə İran arasında yolların kəsişməsində yerləşən Azərbaycanın enerji sahəsində Avropanın önəmli müttəfiqi olduğu, dünyanın dəyişən yeni geosiyasi düzənində mövqeyini möhkəmləndirməyə çalışdığı qeyd edilib.***

Müəllif vurğulayıb ki, Xəzər dənizinin sahilində yerləşən, Avropanın Qafqazdakı ən yaxşı dostu və müttəfiqi Azərbaycanın paytaxtı olan Bakı kontrastlar şəhəridir. Diqqətə çatdırılıb ki, Qafqazda yerləşməsinə baxmayaraq, Avropaya yaxınlığı ilə seçilən Azərbaycan apardığı islahatlar sayəsində çox yaxşı inkişaf yolu keçib. Bunu Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrel də etiraf edib: "Avropadan kənardakı bəzi ölkələr ola bilsin supergüc deyillər, amma biz artıq onları daha çox dinləməli, onlara öz müqəddəratını həll etməyə imkan verməliyik".

Bildirilib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın sabiq Prezident Heydər Əliyevin (2003-cü ilədək), ondan sonra isə Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində regionda geosiyasi rolu artıb, Avropanın yaxından maraqlandığı və tərəfdaşı olmaq istədiyi ölkələrdən birinə çevrilib.

Yazıda qeyd edilib ki, artıq 10 ildən çoxdur ölkə qərbyönümlü siyasət yürüdür özünə yeni dostlar qazanıb. Buna misal olaraq, bu ilin iyulunda Avropa Komissiyasının Prezidenti Ursula fon Der Lyayenin Bakıya səfərini və səfər zamanı imzalanan Anlaşma Memorandumunu qeyd etmək olar. Bu müqavilələr Avropa ölkələrinin, eyni zamanda, Azərbaycan iqtisadiyyatı üçün də müsbət nəticələr vəd edir.


EL ESPAÑOL

Un soldado de Azerbaiyán vigila el paso fronterizo del puente Judaferín con Irán.

MUNDO / REPORTAJE

**Tomando el té sobre un campo de minas con vistas a Irán: viaje a Azerbaiyán, el amigo caucásico de la UE**

Azerbaiyán, el cruce de caminos entre Rusia e Irán, socio de la Unión Europea, pide la vez en la geopolítica del nuevo mundo que viene.

27 diciembre, 2022 - 02:04

GUARDAR

Araz çayı boyunca İran-Azərbaycan sərhədi ilə hərəkət edən müəllif Azərbaycanın heç də hər tərəfdən dost ölkələrlə əhatə olunmadığını bildirib. O, eyni zamanda, Xudafərin körpüsünün tarixinə nəzər salıb, Qarabağa gedən yollarda boş torpaqların, mina təhlükəsi haqqında xəbərdarlıq lövhələrinin göründüyünü qeyd edib. Vurğulayıb ki, olduğu yerdən Ermənistan sərhədinədək bütün ərazilər minalanıb, vaxtilə insanların sıx yaşadığı bu torpaqlar indi xarabalığı xatırladır. Deyib ki, burda müşahidə olunan vəziyyət 30 illik işğalın, BMT tərəfindən qəbul olunmuş və yerinə yetirilməmiş 4 qətnamənin acı nəticəsidir.

Müəllif yazıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə azad edilən torpaqlarda hazırda bərpa-quruculuq işləri uğurla həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə salınan ilk yaşayış məskənində - artıq əhalinin məskunlaşdığı Ağalı kəndində olduğunu bildirən müəllif hər şeyin yeni və müasir tələblərə uyğun qurulduğu bu kəndin Azərbaycanda yaradılan ilk "ağıllı kənd" layihəsi olduğunu bildirib. Kəndə köçürülən əhalinin 95 faizinin işlə təmin olunduğu vurğulanıb.

***Rəsmi İrəvan öz siyasəti ilə sanki Moskvanı ələ saldığını düşünür. Rusiya ilə danışıqlarda Paşinyan və onun hakimiyyəti sarkazmları az qala ənənə halına çevirmək niyyətindədir və bundan sonrakı münasibətlərini bu şəkildə qurmaq arzusundadır. Bu isə təkcə Kremlin deyil, bütün dünyanın diqqətindən yayınmır və bəllidir ki, həmin tərzi Ermənistana baha başa gələcək.***

# Ermənistanın qarşısındakı üç yol: SÜLH, PARÇALANMA VƏ SÜQUT

Bildiyimiz kimi, Ermənistanın xarici işlər naziri Mirzoyan üç ölkənin XİN rəhbərlərinin görüşünə saymazlıq, daha dəqiq desək, siyasi tərbiyəsizlik etdi və həmin görüşə qatılmadı. Elə bu səbəbdən də Rusiya xarici işlər naziri Sergey Lavrovun tənqidinə tuş gəldi. Rusiya XİN rəhbəri açıq-aşkar bildirdi ki, Ermənistan bu müstəvidə də uduzdu. Bu tənqiddən Ermənistan hakimiyyəti nəticə çıxarmaq əvəzinə, Mirzoyanın siyasi tərbiyəsizliyindən Paşinyan deyəsən "ruhlanmış" oldu və bu dəfə erməni baş nazir Rusiya prezidenti Vladimir Putinin üzünə bozardı. "Belə çıxır ki, bölgədə sülhməramlıların fəaliyyəti yoxdur", deyən Vovayeviç şəxsən Putinə qarşı həddini aşdı və bu həddsizliyi ilə Laçın yolunda ekoaktivistlərin aksiyasını dağıda bilmədiyini Rusiya prezidentinə ehyam vurdu və buna görə utanmadığını da göstərdi. Təbii ki, Putin onun vurduğu bu ehyamın əvəzinə nə vuracağını özü yaxşı bilir, amma hər bir halda Ermənistan rəhbəri öz həddsizliyini nümayiş etdirdi. Məsəl var ki, deyirlər, qudurmuş it öz sahibinə hürmək üçün özündə cəsarət tapmaqdan ötrü ilk növbədə ona cəsarət verənlərə arxayın olur. İndi də ruslara qarşı, onlara onilliklər boyu yiyə duran sahiblərinə qarşı ermənilərin bu tərzi hansısa qüvvələrin dəstəyinə arxayınlıq sayəsində peyda olub, əks halda bunu ən azından gizlədərdilər. Bunu Putin yaxşı başa düşür, hətta rusların əksəriyyəti də bilirlər ki, ermənilərə dil verən Fransa kimi bacıları, dünyanın ermənipərəst qüvvələridir. Amma, məsələ burasındadır ki, ermənilərə dil verənlər 44 günlük müharibə zamanı onlara silah, sursat, döyüş ləvazimatları verməditərsə, indiki vəziyyətdə də ümid verənlər sonra çətin durumlarında heç nə verməyəcəklər. Yenə də Ermənistan və erməni xalqı yanlış addımlarının, səhv, terrorçuluq siyasətinin cəzasını, ən azından əziyyətini özü çəkməli olacaq. Görünür, 44 günlük müharibənin acısı ilə yaşayan ermənilər, şəxsən təslimiyyət, Kapitulyasiya sənədini imzalayan Paşinyan üçün dərs olmayıbmış və belə məlum olur ki, yenidən dərs almasına ehtiyac duyulur. Bu dərsi isə Azərbaycanla yanaşı, Rusiyanın da İrəvana verəcəyi artıq görünür.

İrəvanın qəribə, uyğunsuz davranışı ilə bağlı Sergey Lavrov öz fikirlərini Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşündə açıq-aşkar səsləndirilib. Sözsüz ki, planlaşdırılan üçtərəfli görüş məhz İrəvanın konstruktiv dialoq aparmaq istəməməsi, saymazlığı, bir də qeyri-etik yanaşması səbəbindən ikitərəfli oldu və buna görə də Moskvanın qıcıq dolu reaksiyası ilə qarşılaşdı. Lavrov açıq şəkildə bildirdi ki, Rusiya Federasiyası danışıqlarda iştirak etməməyi İrəvanın ciddi səhvi hesab edir. Üstəlik, Lavrovun sözlərinə görə, Ermənistan bunu həm siyasi gediş kimi, həm də diplomatik etiket nöqteyi-nəzərindən, açıq-aşkar gözardı edib. "Mən öz hörmətli həmkarım Sergey Lavrovun təəccüblənməsinə görə də təəccüb hissi keçirdiyimi bildirirəm", deyə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan "Azadlıq" radiosuna müsahibəsində bildirib və bununla da bəlli olur ki, İrəvan dərs almaq niyyətində deyil, əksinə, açıq-aşkar şəkildə vəziyyəti gərginləşdirməyə xidmət edən fəaliyyətə başlayıb. Hətta, tərəflərdən biri hər dəfə əvvəlcədən razılaşdırılmış danışıqlarda iştirakdan imtina edəcəyi təqdirdə tərəflər arasında insidentlərin davam edəcəyi barədə Lavrovun bəyanatını dəyərləndirməyi xahiş etdikdə, Ermənistanın XİN rəhbəri kobud şəkildə bildirib ki, İrəvan görüşün təxirə salınmasının səbəbini və zəruriliyini aydın şəkildə göstərib.







Son zamanlar Rusiya ilə Ermənistan arasında danışıqlar bu zamana qədərki dialoq formatına qətiyyən bənzəmir. İtin öz sahibinə hürməsi, hətta dişlərini qıcaması başına bəlalar gətirdiyi kimi, ermənilərin ruslara qarşı belə davranışları politoloqlar tərəfindən "intihara" meyilli davranış olaraq qiymətləndirilir. Düzdür, heç bir kömək olmadıqda, ehtiyacları qarşılanmadıqda, iyanələr, yardımlar edilməyəndə, ermənilər, ələlxüsus zəifləməkdə olan "sahiblərinə" qarşı nankorluq etməyə alışqandırlar. Nankorluq ən dəyişməz erməni ənənəsi hesab olunur, amma bu zamana qədər mövcudluqlarına görə hər zaman özlərini borclu hesab edəcəkləri halda erməni baş nazirin Rusiya prezidentinə ehyam vurması, Qarabağdakı rus sülhməramlıları ilə bağlı dalbadal iradlar bildirməsi nankorluğu da aşıb keçmiş oldu. "Onlar (yəni rus sülhməramlıları) öz vəzifələrini yerinə yetirsinlər", deyə Putinə irad bildirən Paşinyan bəlkə elə zənn edir ki, Moskva buna sonsuza qədər dözəcək? Bəlkə, Paşinyanın və Mirzoyanın qeyri-etik siyasi davranışlarına dişlərini qıcayaraq hələ də dözən Vladimir Putin həmişə belə dözüm nümayiş etdirəcək? Etdirməyəcək və bir gün səbr kəsası daşdığı zaman Rusiya prezidenti başda elə erməni baş naziri olmaqla, ermənilərə əbədi olaraq yaddaşlarına həkk olunası dərsi vermiş olacaq.

Artıq rəsmi İrəvanın yanlış siyasəti, yanlış addımları barədə bir-birinin ardınca diplomatların, politoloqların, siyasətçilərin əksəriyyəti açıq-aşkar şəkildə bildirirlər. Hətta, erməni əsilli politoloqlar belə tam aydın mətnlə bildirirlər ki, Ermənistan tərəfi yanlışlıqlara yol verir. Məsələn, Rusiyada diplomatik müstəvidə müşahidə edilənləri, Ermənistan XİN rəhbəri Ararat Mirzoyanın Rusiya və Azərbaycandan olan həmkarları ilə Moskvada görüşməkdən imtina etməsini nəzərdə tutan erməni əsilli politoloq Aleksandr İskəndəryan "Novosti Armeniya"nın müxbirinə müsahibəsində bildirib ki, diplomatların bir-birindən narazılıqlarını açıq şəkildə ifadə etməsi ciddi böhranın göstəricisidir. Ümumiyyətlə, əksər siyasətçilər, politoloqlar hesab edirlər ki, Rusiya-Ermənistan münasibətlərinin hazırda çox gərgin formatda olması ermənilər üçün yaxşı heç nə vəd etmir. Məsələn, siyasi elmlər doktoru, Rusiya Federasiyasının birinci dərəcəli dövlət müşaviri, rusiyalı politoloq Tatyana Poloskovanın fikrincə, Mirzoyanın Lavrovla bağlı açıqlamaları heç də diplomatik dilə, lüğətə, tərzə uyğun deyil. "Bəzi eyhamlar çox kobud üslubda idi, mətndə də nədən bəhs edildiyi aydın deyildi. Əgər baş erməni diplomat rusiyalı həmkarına sataşmaq istəsəyirdisə, bunu təklikdə edə bilərdi. Ermənistan bazarına məxsus bu atmacalar nəyə lazım idi?", deyə rusiyalı politoloq Tatyana Poloskova qeyd edib və nəzərə çatdırıb ki, diplomatiya haqqında çox kobud təsəvvürü olan Mirzoyanı qınamağa belə dəymir.

Bəli, etiraf etmək lazımdır ki, Rusiya hazırda öz tarixinin bəlkə də ən problemli dövrlərindən birini yaşayır. Bu ölkənin daxilində də təlatümlü vəziyyət hökm sürür. Amma bir atalar sözündə, zərb məsəldə deyildiyi kimi, "Dəvə ölü olsa da dərisi belə beş eşşəyə yükdür". Yəni, Rusiya nə qədər təlatümlü dövrdə olsa da, nə qədər zəifləsə də belə Ermənistan kimi çox cılız bir ölkəni bir anda susdura bilər. Hələ də ruslar ermənilərin həddsizliyinə dözüm nümayiş etdirir, amma bu dözümün də bir həddi, bir sonu var və bu zaman Ermənistanı nələr gözlədiyini təsəvvür etmək çətin deyil.

Bu vaxta qədər ermənilərə onlara sığınacaq verən Azərbaycan ərazisində Ermənistan adlı bir dövlət yaratmaq şansı verildi. Məhz ruslar onlara ötən əsrin əvvəllərində belə bir şansı yaratdılar, sona qədər də dəstək verdilər. Onların bir də belə bir şansı olmayacaq, ola da bilməz. Ermənilərin heç bir şansı olmayacaq, onlar öz şanslarını artıq əldən də vermək üzrədirlər. Nə xəyanət etdikləri Rusiya bundan sonra Ermənistanın nazı ilə oynamaq fikrindədir, nə də Azərbaycan buna imkan verən deyil. Həddsizliyi aşıb-daşan hay həyasızlığı elə səviyyəyə çatıb ki, onlar bölgədə ikinci erməni dövləti xülyasına düşüblər. Amma bu həddsizlikləri onları zəif də olsa, cılız da olsa, mövcud olan Ermənistan dövlətindən də məhrum edə bilər. Bu məhrumiyyəti onlar öz əməlləri özlərinə rəva bilirlər.

Rəsmi İrəvan hiyləgər siyasət yürüdür. Gah Qərbə, gah da Rusiyaya meyilli olduğunu göstərir. Bu da bir reallıqdır ki, rəsmi İrəvan ABŞ-la, bu ölkənin xüsusi xidmət orqanları ilə əlaqəni heç vaxt dayandırmayıb. Rusiyanı müttəfiq adlandıran Ermənistan bu ölkəyə rəqib ölkələrlə xəlvəti əlaqələr qurub və rusların əleyhinə mövqe nümayiş etdirib. Artıq ruslar özləri də bunu bildikləri etiraf edirlər və bəyan edirlər ki, yaxın vaxtlarda Ermənistan öz dəqiq seçimini etməsə, bu ölkənin gələcəyi olmayacaq. Daha dəqiq desək, ruslar açıq-aydın bildirirlər ki, ermənilərə bir zərrə də kömək göstərilməyəcək, heç nəzər də salınmayacaq. Bu isə həqiqətən işğalçı ölkənin bir növ məhvi deməkdir.

Həqiqətən də işğalçılığı dövlət siyasəti olaraq qəbul edən Ermənistanın bir neçə, daha dəqiq desək, üç yolu var. Birinci yol odur ki, ya Ermənistan Azərbaycanla tam dialoqa girərək, sülh müqaviləsi imzalayaraq, sülh yolu ilə mövcud olmağa davam edəcək, hansıki bunu arzuladığı hiss olunmur. İkinci yolu odur ki, bir ölkə kimi mövcudluğu təhlükə altında olan Ermənistan daxili qüvvələrin fikir müxtəlifliyi, bir məxrəcə gələ bilməmələri, bölgədə sülhə mane olmaları, iğtişaşlar yaratmaları səbəbindən öz içindən parçalanacaq. Əslində bu prosesin başladığı da göz önündədir və işğalçı bir ölkənin daxilində iki, üç deyil, daha çox fikir ayrılıqlarının olduğu hər kəsə bəllidir. Bu isə prosesin daha sürətlə getməsinə əsaslı zəmin yaradır. Üçüncü yol isə odur ki, ermənilər hazırda məskunlaşdıqları torpaqlarla da vidalaşa bilərlər, eyni ilə 30 il məskunlaşdıqları Qarabağ əraziləri kimi. Azərbaycan tərəfi bu yaxınlarda açıq mətnlə bəyan etdi ki, İrəvan Azərbaycan torpağıdır. Deməli, həmin ərazilərin də eyni ilə Qarabağ əraziləri kimi qaytarılması da gözlənilənd ir və biz hamımız daha çox buna inanırıq. Biz 30 il müddətində inanırdıq ki, Qarabağ əraziləri Azərbaycana qaytarılacaq və Ali Baş Komandanın, cənab Prezident İlham Əliyevin qətiyyəti, uzaqgörənliyi, siyasi iradəsi, Azərbaycan Odusunun rəşadəti, xaqımızın birliyi sayəsində qaytarıldı da. İndi həmin siyasi iradə də, qətiyyət də, uzaqgörənlik də, rəşadət də, birlik də öz yerindədir və daha da artıqdırsa, deməli, İrəvan torpaqlarının qaytarılması da uzaqda deyil. Deməli, Ermənistan adlı dövlətin tarixdən silinmək məsələsi də, süqutu da var və bu gedişlə ermənilər, ələlxüsus Ermənistan hakimiyyəti həmin prosesi daha da sürətləndirir. Heç şübhəsiz ki, Azərbaycanın da səbri hüdudsuz deyil, Qarabağın geri qaytarılmasına başlanıldığı kimi, İrəvanın da Azərbaycan geri qaytarılması prosesi başlayan zaman Rusiyanın, Fransanın, yaxud da İranın, Amerikanın timsalında güvəndikləri hansısa ölkə onları, ölkələrini eyni ilə 44 günlük müharibədə olduğu kimi, xilas etməyəcək, çünki İrəvan heç kim üçün əvəzsiz, matah tikə deyil və maraq dairəsindən tamamilə kənardır.

***İnam Hacıyev***

# Çin - yeni dünya lideri?



## Yuan gücünü itirən dolları sıradan çıxarmağa iddialıdır



BAXIŞ BUCAĞI

***Ukraynadakı münaqişə bir çox ölkələrin çoxqütblü dünya və ABŞ-dan müstəqillik istəyini gücləndirib. Bu, başqa nüanslarla yanaşı, beynəlxalq ticarət valyutası kimi dollardan uzaqlaşma meylində də özünü göstərir. Bu gün dolları Çin yuanı, Rusiya rublu, Türkiyə lirəsi və BƏƏ dirhəmi əvəz edir. Ukrayna böhranı həm də çoxqütblülük və çoxtərəfliliyin dünyaya daha yaxşı xidmət etməsi ilə bağlı demək olar ki, qlobal baxışı gücləndirib.***

Şübhəsiz ki, Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı "Soyuq Müharibə"dən sonrakı dövrün sonları kimi ab-hava yaradıb. Bir çox ölkələr Rusiyanın hərəkətlərini pisləsə də, əksəriyyəti ona qarşı sanksiyalar tətbiq etməyib. Qərbin Ukrayna böhranını demokratiya və avtoritarizm arasında qarşıdurma kimi qələmə verməsinin əksinə olaraq, bu ölkələr münaqişənin demokratiya-avtoritar ikilidən çox kənara çıxdığını, onların milli təhlükəsizliyinə, eləcə də qlobal dayanıqlığına və sülhə təsir etdiyini görməyə başlayıb. Ərzaq böhranı, armaqda davam edən məcburi köçkün və qaçqın kütləsi, müharibənin yayılması təhlükəsi və qeyri-ənənəvi silahlardan istifadə bu ölkələrin ən həssas hissəsini risk altında qoyur. Eyni zamanda, Ukrayna münaqişəsi beynəlxalq nizamı və qlobal arxitekturanı dəyişərək, dövlətlərə heç bir siyasi düşərgəyə qoşulmadan öz maraqlarını həyata keçirmək imkanı verir. Ümumiyyətlə, bu kataklizm dünyanı üç düşərgəyə bölüb: biri ABŞ və NATO, digəri Rusiya və Çin, üçüncü düşərgə isə bu iki düşərgə arasında olanlar. Üçüncü tərəf eyni zamanda qlobal böhranda neytrallığı qəbul edən ölkələrin əksəriyyətini əhatə edir.

"Neytral" ölkələr öz maraqlarını rəhbər tutanlar kimi çıxış edirlər. Onların bir çoxu ABŞ-ın dostları və ya müttəfiqləridir. Ancaq Ukrayna böhranı və ya siyasi sistemləri səbəbindən Rusiya və Çinin düşməni və ya düşməni olmayıblar. Onlar bilirlər ki, qıt resurslar uğrunda qlobal rəqabət dövründə dünyanın ən böyük təbii sərvətlərə malik ölkəsi olan Rusiyaya və dünyanın ikinci ən böyük iqtisadiyyatı və valyuta ehtiyatlarına sahib olan Çinə qarşı nə sanksiya tətbiq etmək, onlara qarşı çıxmaq bir o qədər də məqsədyönlü deyil. Ancaq eyni dərəcədə, indiyə qədər ən böyük iqtisadiyyata malik ən güclü ölkə olan ABŞ ilə münasibətləri də korlaya bilməzlər. Onların siyasətləri soyuq müharibənin ideoloji qütbündən uzaq, milli maraqları ilə diktə olunur. Başqa sözlə, bu, ABŞ-ın siyasəti ilə üst-üstə düşmür və mütləq üst-üstə düşməyəcək. Səudiyyə Ərəbistanı, BƏƏ, Misir, Hindistan, Braziliya, Cənubi Afrika Respublikası, Argentina və İndoneziya kimi dövlətlərin Amerika xəttini dəstəkləməkdən və Rusiyaya qarşı sanksiyalar tətbiq etməkdən imtina etməsini başqa necə izah etmək olar?

Maraqlıdır ki, bu ölkələrin bir çoxu çoxqütblülük və çoxtərəflilik ilə səciyyələnən yeni dövrlə "Soyuq Müharibə"dən sonrakı dövrün sona çatmasının şahidi olublar. Onlar Amerikanın 2003-cü ildə İraqa birtərəfli işğalından sonra onun birqütblü gücündən həmişə narahat olublar. Ukrayna böhranı və onun dünyanı parçalamaq üçün nəticələri, İraq və Əfqanıstandakı fiaskodan sonra Amerikanın gücünün tənəzzülə uğraması ilə bağlı demək olar ki, universal təsəvvürlə birləşərək, ölkələrin Amerikanın qlobal gücünü dəstəkləməklə Vaşinqtonun qlobal gücünü cilovlamaq əzmini daha da gücləndirdi. Bu baxımdan Çin dünyanın ən böyük regional siyasi, iqtisadi və təhlükəsizlik təşkilatı olan ŞƏT və BRİKS kimi beynəlxalq təşkilatları Qərbin iqtisadi və siyasi gücünə qarşı tarazlıq kimi dəstəkləyərək önə çıxdı.

Həqiqətən də, ŞƏT yeni "demokratik, ədalətli və rasional beynəlxalq siyasi və iqtisadi nizamı" təşviq etmək istəyərkən, BRİKS (İnkişaf etməkdə olan ilk beş iqtisadiyyatın abreviaturası: Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) çoxqütblü dünya sisteminə keçidi asanlaşdırır. Onlar Yeni İnkişaf Bankı kimi qurumlar vasitəsilə Qərbin üstünlük təşkil etdiyi Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına alternativlər yaratmağa çalışırlar. Maraqlıdır ki, adıçəkilən təşkilatlara yeni ölkələrin qəbulu ilə bu təşkilatların təsir imkanları artır. Məsələn, Əlcəzair, Misir, Türkiyə, Səudiyyə Ərəbistanı, Argentina və İran ya rəsmi ərizələr verib, ya da BRİKS-ə qoşulmağa hazır olduqlarını bildiriblər.

Bu hadisələrin mərkəzində ABŞ-ın ümumi qlobal mövqeyinin zəifləməsi üçün ilkin şərt kimi dolları zəiflətmək istəyi dayanır. Əslində dollar ABŞ-ın mövcudluğunun əsasını təşkil edən "zəif yerdir". Dünya iqtisadi qanunauyğunluqlarını və tendensiyalarını araşdırarkən aydın olur ki, Çin və Rusiya tərəfindən "rəhbərlik edilən" və ya dəstəklənən bir çox ölkələr dolların dünyanın əsas ticarət valyutası kimi istifadəsinə yenidən baxmağa meyllidirlər.

Bu gün dollar dünyanın əsas ticarət valyutasıdır. Onun qlobal hegemonluğu 1944-cü ildə Bretton-Vuds Konfransı zamanı 44 müttəfiq dövlətin öz valyutalarını dollara bağlayan yeni beynəlxalq pul sistemi yaratmağa razılaşdığı vaxta gedib çıxır. O vaxtdan bəri əksər maliyyə əməliyyatları, beynəlxalq borc öhdəlikləri və qlobal ticarət hesabları dollarla ifadə edilir və dünya valyuta ehtiyatlarının böyük hissəsi də dollarla saxlanılır.

Lakin 2000-ci ildən bəri Çin öz valyutası olan yuanın istifadəsini beynəlmiləlləşdirməyə çalışır. Pekinin bu səyləri son vaxtlar NATO ölkələrinin Ukrayna ətrafında toplaşması, Rusiyaya qarşı görünməmiş sanksiyalar tətbiq etməsi və Tayvanla ictimai həmrəylik nümayiş etdirməsi ilə daha da güclənib. ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Tayvana səfərindən sonra ABŞ-Çin münasibətlərində gərginlik kəskin şəkildə artıb və iki güc - ABŞ və Çin arasında mövcud olan bütün xoş niyyət və etimadı faktiki olaraq məhv edib. Bu arada, dünyanın qarışıqlıq və transformasiya içərisində olması ilə bağlı Çinin fikrini bölüşən bir çox ölkə dünyanın əsas ticarət və ehtiyat valyutası kimi ABŞ dollarından asılılığını azaltmağın yollarını araşdırmağa başlayıblar.

2022-ci ilin iyununda BRİKS-in 14-cü sammitində bu beynəlxalq qruplaşma yeni beynəlxalq ehtiyat valyutanın hazırlanması məsələsini nəzərdən keçirib. 2022-ci ilin martında Avrasiya İqtisadi İttifaqı (Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Belarusun daxil olduğu) yeni beynəlxalq valyutanın yaradılması zərurəti ilə bağlı razılığa gəliblər. Rusiya artıq Çin yuanını özünün faktiki ehtiyat valyutasına çevirib. Avqust ayında İran Rusiya ilə ticarətdə öz valyutası rial və rus rublundan istifadə etməyə başladığını bildirib. Daha əvvəl ABŞ dolları ilə dövlət istiqrazları buraxan BƏƏ dirhəmlə istiqraz buraxmağa başlayıb. Avqust ayında Misir Çin yuanı ilə ifadə olunan 500 milyon dollardan çox istiqraz buraxmağı planlaşdırdığını açıqlayıb. Üstəlik, Misir Çinlə ikitərəfli valyuta svopları həyata keçirir. 2022-ci ilin aprel ayında İsrail Bankı aktivlərinə dörd yeni valyuta (Kanada dolları, Avstraliya dolları, Yapon yeni və Çin yuanı) əlavə edib. İsrailin 200 milyard dollarlı keçən valyuta ehtiyatları ənənəvi olaraq dollar, avro və ingilis funt sterlinqindən ibarət olub.

Ən əsası, Çin yuanla ifadə olunan xam neft fyuçerslərini tətbiq etmək və idxal olunan nefti ABŞ dolları ilə deyil, öz valyutası ilə ödəmək strategiyası hazırlayıb.





Çin və Səudiyyə Ərəbistanı Ər-Riyadla Pekinə satılan neftin bir hissəsini yuanla qiymətə almaq üçün fəal şəkildə danışıqlar aparır. Prezident Si Cinpinin Ər-Riyada bu yaxınlarda etdiyi səfərin əsas məqsədi də bu idi. Qızılgül ləçəkləri və nəhəng çiçək təsvirləri olan qırmızı xalçalarla qarşılanan Xi ərəb monarxiyası tərəfindən guya hörmətlə qarşılanıb və onun səfəri yerli mediada həvəslə işıqlandırılıb. Çin lideri üç sammitdə iştirak edib: birinci Çin-Ərəb Dövlətləri Sammiti, Çin-Körfəz Əməkdaşlıq Şurasının Sammiti və Çin-Səudiyyə Ərəbistanı Sammiti.

*"ABŞ dollarından beynəlxalq miqyasda istifadənin cazibəsinin bir hissəsi ABŞ-ın geosiyasətinin gücü, iqtisadi gücü və möhkəmliyindədir. Amma bu gün həmin cazibə artıq öz parıltısını bir qədər itirməkdədir"*

Si Cinpinin mesajı aydın idi. Ukrayna böhranı təlatümdən sarsılan və köklü dəyişikliklərə məruz qalan hazırkı dünyanı ifşa etdi. Və əslində yeni dövrün formalaşması Çin, ərəb dövlətləri və bir çox başqa dövlətlərin üzərinə düşür. Si Cinpin ərəblərə müraciətində həmrəylik və qarşılıqlı yardım, bərabərlik və qarşılıqlı fayda, paylaşma və qarşılıqlı öyrənməyə əsaslanan Çin-Ərəb əlaqələrinin inkişafının vacibliyini, habelə Çin-Ərəb icmasının birgə qurulmasının prioritetini vurğuladı. Səudiyyəlilər və digər ərəblər üçün əsas mesaj ondan ibarət idi ki, Çin ABŞ-dan fərqli olaraq ərəb siyasətini və rifahını diktə etməyəcək, təsir etməyəcək və ya təhlükəyə atmayacaq. Çin və ərəb dövlətləri münasibətlərini hörmət, bərabərlik, həmrəylik və bir-birinin daxili işlərinə qarışmamaq əsasında inkişaf etdirəcəklər. Sənayenin geniş spektrini, o cümlədən yaşıl enerji, yaşıl hidrogen, günəş enerjisi, informasiya texnologiyaları, bulud xidmətləri, nəqliyyat, logistika, tibb sənayesi, mənzil və tikinti sahələrini əhatə edən milyardlarla dollar dəyərində onlarla müqavilə imzalanıb. Razılaşmaların məqsədlərindən biri Pekinin dünya məsələlərində liderliyini təsdiqləmək vasitəsi kimi qlobal miqyasda bir çox ölkələrə sərmayə qoyan Çinin "Bir kəmər və yol" təşəbbüsü çərçivəsində krallığın iqtisadiyyatının şaxələndirilməsi üzrə Səudiyyə Ərəbistanının Gələcək 2030 meqalayihəsini birgə dəstəkləmək idi.

Razılaşmaların ruhuna və hərfinə uyğun tərtib edilmiş və Si Cinpin tərəfindən Fars körfəzinin ərəb ölkələrinin liderlərinə Çinə neft və qazı yuana satmaq üçün açıq şəkildə dilə gətirilən Çin valyutasını əsas beynəlxalq valyutaya çevirmək məqsədi daşıyırdı. və buna görə də ABŞ dollarının dünya ticarətinə təsirini zəiflədir. Heç kimə sirr deyil ki, vəliəhd şahzadə Məhəmməd bin Salman çoxdan Çinlə bu yeni münasibətlər rejiminə doğru irəliləyir. Hətta ilk baxışdan Si Cinpinin səudiyyəlilər tərəfindən ən təntənəli qəbulu onu Fars körfəzini Amerika diqtəsinin buxovlarından azad edən kimi qarşılamağın bütün əlamətlərinə malik idi!

Şübhəsiz ki, Səudiyyə Ərəbistanı yuanla neft alverinə başlasa, dünya neft bazarında ABŞ dollarının dominantlığı sarsılacaq. Nikson administrasiyası qızılın konvertasiyasını dayandıraraq dolları üzəndən bəri, dollar neftə əsaslanır (buna görə də ona "netrodollar" deyilir). Bir çox ölkələrin dollardan istifadəyə yenidən baxmaq üçün dəfələrlə etdiyi cəhdləri nəzərə almaq olmaz. Ayrıayrılıqda, bu cəhdlər zərərsiz görünə bilər, lakin birlikdə onlar ABŞ dolları və əlavə olaraq Amerika iqtisadiyyatı üçün pis əlamətdir.

Şübhəsiz ki, ABŞ dollarından beynəlxalq miqyasda istifadənin cazibəsinin bir hissəsi ABŞ-ın geosiyasətinin gücü, iqtisadi gücü və möhkəmliyindədir. Amma bu gün həmin cazibə artıq öz parıltısını bir qədər itirməkdədir. ABŞ-ın milli borcu heyrətamiz dərəcədə 31 trilyon dolları keçib və Amerikanın qlobal təsiri azalır.



Təsadüfi deyil ki, Amerikanın bəzi müttəfiqləri və ya dostları uzun müddətdir ki, ehtiyatlarını alternativ valyutalarda istifadə etmək və ya saxlamaq barədə düşünürlər.

Tarixən dünya müəyyən valyutaların hökmranlığının bir neçə dövrünün şahidi olub. Portuqaliya 1530-cu ilə qədər, İspaniya daha güclü bir dünya gücü kimi ortaya çıxana qədər dünya ehtiyatlarında dominantlıq etdi. Hollandiya və Fransa pul vahidləri 17-18-ci əsrlərin əksəriyyətində Britaniya İmperiyasının yüksəlişinə qədər dünya ticarətində üstünlük təşkil etmiş, bundan sonra funt sterlinq dünyanın qızıl standartına çevrilmişdir. Sonra ABŞ dolları gəldi, çünki Amerikanın siyasi və iqtisadi gücü dünyada hökmranlıq edir.

Bu gün Vaşinqton qlobal gücünün yavaş-yavaş, lakin davamlı şəkildə azaldığına dair işarələrə qəsdən məhəl qoymadan, deyə bilərik ki, öz xarici siyasətini həyata keçirir. İraq və Əfqanıstandakı müharibələrdən sonra yaranmış Ukrayna böhranı isə çoxqütblülük və çoxtərəfliliyin dünyamıza daha yaxşı xidmət etdiyi barədə planetdə demək olar ki, hakim olan rəyi gücləndirdi. Onu üç geniş düşərgəyə ayıran, NATO-nun yaratdığı Ukrayna böhranı "neytral düşərgə"ni Çin və Rusiyaya yaxınlaşmağa sövq etdi. Vaşinqton Rusiyanın xüsusi əməliyyatına qarşı Ukraynaya dəstək verməyi xarici siyasətin əsas prioriteti etsə də, bir çox neytral ölkələr və Çin dünyaya başqa gözlə və pərdəsiz baxır. Onlar Ukrayna münaqişəsinin artan xərclərinin bütün sahələrdə - sosial-iqtisadi, siyasi, hərbi, enerji və ictimai sahələrdə özünü necə göstərdiyini görür və dünyanı qlobal partlayışa yaxınlaşdırır. Qərb rəhbərliyi dünya ictimaiyyətinin rəyindən asılı olmayaraq Putin və Rusiya üçün "ədalət" axtararkən, qeyri-qərb düşərgəsinin rəhbərliyi sülhə can atır. Burada problem onda görünür ki, ədalət heç vaxt sülh hesabına və onun hesabına əldə edilə bilməz. Bu, Vaşinqtonun İraq və Əfqanıstandan heç vaxt öyrənmədiyi bir dərs kimi görünür: "cəza" ideyası birinci gəldi və gələcəklə bağlı planlar, əgər mövcud olsaydı, "sonraya" qaldı. Nəticədə dünyanın özü diqqətdən yayındı.

Ən əsası isə "nəticələrindən asılı olmayaraq ədaləti axtaran" düşərgəyə rəhbərlik etməklə Vaşinqton öz tənəzzülünə yol açır. Bu baxımdan, çox güman ki, yuan "çoxqütblü" dünyada onilliklər, əsrlər deyil, bir neçə il ərzində ABŞ dollarına alternativ olacaq. Bu, ABŞ iqtisadiyyatına və Vaşinqtonun çıxa bilməyəcəyi ABŞ-ın qlobal mövqeyinə ağır zərbə vuracaq.

(Yazıda xarici mətbuatdan əldə edilmiş faktlardan istifadə edilib)

**V.VƏLİYEV**



# Evli kişilər niyə gənc qızları hədəf alır?



**_Son zamanlar aktual məsələlərdən biri də evli kişilərin subay qızları aldatmasıdır. Belə ki, bir çox evli kişilər özlərindən yaşca kiçik olan subay qızlara ümid verərək onları tələyə salır. Bəzi kişilər bunu gizli etsə də, açıq-aydın edənlərin sayı da az deyil. Bəs, bu nədən qaynaqlanır? Onlar niyə bu addımı atırlar?_**

ARAŞDIRMA

Araşdırmalar göstərir ki, kişilər təkcə sıxıldıqları üçün deyil, daha çox kişiliyini təsdiqləmək üçün yoldaşına başqa qadınla xəyanət edir. Bundan əlavə, kişinin başqa bir qadını cəlb etməsinin birdən çox səbəbi ola bilər. Kişilərin subay qızlara maraq salmasının digər bir səbəbi həyat yoldaşının hamilə olmasıdır. Bəziləri bunu bəhanə edərək, hətta yoldaşına bunu əsas gətirərək xəyanət edir. Çünki onlara subay gənc qızlar daha maraqlı gəlir.

Evli bir kişinin başqa bir qadına aşiq olub-olmayacağı sualı, xüsusilə aldadıldığını düşünən qadınların ən çox araşdırdığı mövzulardan biri olmağa davam edir. Nə qədər xoşbəxt evliliyiniz olsa da hər ailədə olduğu kimi müəyyən bir çətin qırılma nötəsi yaşanır. Həmin bu dövrdə kişilər müəyyən məqamlarda nə edəcəklərini bilmədiklərindən başqa qadına üz tuturlar. Təəssüf ki, kişilər evdə həyat yoldaşlarını sevsələr və həqiqətən xoşbəxt olsalar belə, kənarda fərqli alternativlər axtara bilərlər. Təbii ki, bu onların bəhanəsidir.

### Kişi necə qadın istəyir?

Burada detallar yer almağa davam edir.

- Kişilər anlaşılmağa çox diqqət yetirirlər. Ümumiyyətlə, bütün kişilər onları dinləyən, dediklərinə fikir verən qadınları bəyənirlər.
- Pozitiv olmağa çalışın. Kişilər yaşadığı hər anın dadını bilən bir qadından əl çəkməzlər.
- Realist olmalıdır. Qadın nə qədər realist olsa, bir o qədər kişilərin diqqətini çəkə biləcək.
- Qadın baxımlı olmalıdır.

Subay qızları aldadan evli kişilər daha çox iki telefondan istifadə edir.



Əksəriyyəti də ikinci telefonu ya iş nömrəsi adı ilə istifadə edir, ya da avtomobilində gizlədir. Onlar hədəfinə nail olana qədər gənc qızların qəlbini ələ almaq üçün hər yola əl atırlar.

Şotlandiyanın Stirling Universitetində aparılan araşdırmalara görə, kişilərin gözəl qadınlara baxmağa meyli təkamüldən qaynaqlanır.

Daily Telegraph-da dərc olunan araşdırma hesabatında qadınlar tanış olduqları kişiləri cazibədar görsələr də, kişilərin tanımadıqları qadınlara üstünlük verdiyi bildirilir. Bunun kişi əcdadlarımızın mümkün qədər çox qadınla yataraq genlərini ötürmək həvəsi ilə bağlı ola biləcəyi vurğulanır. Qadınların isə uşaqlarına baxa biləcək etibarlı həyat yoldaşları axtardıqları üçün onlarla tanış olan kişilərə üstünlük verdiyi deyilir.

Bəs, xəyanətdə evli kişilər, yoxsa tələyə düşən subay qızlar günahkardır? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Onu da qeyd edək ki, burada yanlız kişiləri günahlandırmaq olmaz. Belə ki, kişinin evli olduğunu bilə-bilə ondan əl çəkməyən subay qızların sayı da günü-gündən artmaqdadır. İndi bəzi qızlar üçün "ikinci qadın" olmaq normal haldır. Üstəlik, bu qızlar kişini öz ailəsindən ayırmaq üçün əllərindən gələni edirlər. Kişi də öz xanımına maddi-mənəvi etmədiyi hərşeyi həmin bu "ikinci qadın"a edərək tələyə düşür. Kişilər anlamır ki, onlar bu qadınlara yanlız pulu olduğu müddətdə lazımdır. Pul bitdikdə o kişinin də istifadə müddəti bitəcək.

Eynilə bu evli kişilərin tələsinə düşən subay qızlara da aiddir. Onlar da bu kişilərə hədəfinə nail olana kimi lazımdır. Bu "kişi"lər də həmin qızları daha sonra istifadə müddəti bitmiş hesab edir.

Lakin, onlar anlamır ki, başqa birinin göz yaşları üzərində əsla xoşbəxtlik əldə edilə bilməz. Çünki öz ailəsindən vaz keçən kişi, bir gün səni də darda qoyub gedəcək. Yaxşı olardı ki, bu problemlərlə bağlı maarifləndirici tədbirlər görülsün, seminarlar təşkil edilsin və qızlar bilgili olsun. Onlar bu tip kişilərin qurbanı olmasın".

**_Ayşən Vəli_**



Elçin Bayramlı

## _Küçədən yığılan milyonlar_

### Avtomobillərin küçədə saxlanmasına görə yığılan pullar hara gedir?

Əgər sizin işiniz gün ərzində şəhərin müxtəlif yerlərinə baş çəkməkdən ibarətdirsə, o zaman halınız fənadır. Hər dəfə bir neçə dəqiqəlik dayananda- mağazadan su almaq, evdən nəsə götürmək üçün avtomobilinizi bir neçə dəqiqəlik küçədə saxlayıb qayıdanda gərək cibinizə xeyli pulunuz olsun. Çünki hər dəfə "ərəbzəngilər" başınızın üstünü kəsdirəcəklər ki, "pul ver". Tələb olunan pul da nə az, nə çox düz 1 manatdır.

Şəhərin mərkəzində işləyənlərin çoxu avtomobillərini saatı 1 manatdan yeraltı qarajda saxlamağa məcburdurlar ki, bunun da aylıq xərci minimum əməkhaqqından çoxdur. Bu, bazar iqtisadiyyatının gətirdiyi yenilik, daha doğrusu problemdir. İnsanlar şəxsi avtomaşınlarını dayandırmaq üçün pul ödəməlidirlər. Bəs bu pullar hansı əsasla yığılır, məbləğ necə müəyyənləşir, vəsaitlər hara gedir?

İndi şəhərin az qala bütün küçələrinin kənarları zəbt edilib, pullu dayanacağa çevrilib. Bunların bir çoxunda dayanacaq pulunu qanuni faliyyət göstərən işçilər yığsa da, bəzilərində qoluna qırmızı lent bağlanmış, amma üzərində heç bir sənəd olmayan adamlar sürücülərdən pul yığır. Hətta bir çox yerlərdə, səkilərin üstündə maşın dayanacağı açıblar ki, nəticədə piyadalar maşın yolu ilə getməli olurlar.

Bu vəziyyətdən həm piyadalar, həm də sürücülər narazıdırlar. Sürücülərdən biri belə deyir: "Şəhərin hər yerini pullu dayanacaq ediblər, bəlkə mən maşınla gedirəm, pulum ya da benzimin də qurtarıb, indi neyləyim, maşını göydə saxlayım? Öz şəhərimdə öz maşınımla gəzmək, maşınımı haradasa dayandırmaq üçün niyə kiməsə pul verməliyəm?"

Əslində, dayanacaqlarda sürücülərdən alınan rüsumun əvəzində çek verilməlidir. Bu, qanuni fəaliyyət göstərən dayanacaqlardır. Bir çoxu isə qeyri-qanuni fəaliyyət göstərən dayanacaqlardır ki, bunlarda vətəndaşları aldadaraq pul yığırlar. Kimsə qoluna qırmızı lent bağlayıb gəlib yolun kənarında sürücülərdən pul yığır, heç kim də soruşmur ki, hanı sənin sənədlərin, nə əsasla pul yığırsan?

Mərkəzi küçələrdə əynində uniforma olan dayanacaq nəzarətçiləri fəaliyyət göstərir, amma sürücülərə çek vermirlər. Bu barədə soruşanda deyirlər ki, onlara çek vuran aparat təqdim edilməyib.

Şəhərin mərkəzindən aralı küçələrdə isə, qoluna qırmızı lent bağlamış adamlar sürücülərdən pul yığırlar. Əksəriyyəti konkret işlədiyi idarənin adını, pulun hara çatdığını bilmir. Söhbətləşdiyimiz pulyığanlar adlarını deməkdən çəkindilər, amma bizə maraqlı faktlar danışdılar. Hətta bəziləri xahiş etdilər ki, onların çörəyinə bais olmayaq, adlarını və yerlərini yazmayaq.

Deməli pulyığanların dediyinə görə, dayanacaqların çoxu qanuni deyil, hərəsinin öz qeyri-rəsmi sahibi var. Onlara plan qoyulur və hər axşam gəlib pulu aparırlar. Nəzarətçilər gündə təxminən 15-20 manat qazandıqlarını deyirlər.

Bir sözlə bir neçə saat müxtəlif dayanacaqlarda müşahidə aparmaq kifayətdir ki, milyonlarla pulun dövlət büdcəsinə çatmalı olduğu halda, başqa yerlərə getdiyinin şahidi olasan. Çünki heç bir çekdən, kassa aparatından söhbət belə gedə bilməz.

Rəsmi məlumata görə, Azərbaycanda 1,5 milyondan artıq avtomobil qeydiyyatdadır ki, onun da yarıdan çoxu, paytaxtdadır. Gün ərzində bu maşınların heç olmasa yarısının bircə dəfə dayanacaqda saxlanması şəraitində təxminən nə qədər pul yığıldığını aydınlaşdırmaq olar. 350 min maşın sahibinin gündə 1 qəpik ödədiyi halda gündəlik 350 min, ayda 10 milyon, ildə 120 milyon manat vəsait toplanır.

Nəzərə alsaq ki, gün ərzində parkovkaların sayı bundan 2 dəfə çox ola bilər, o zaman söhbətin daha iri məbləğdən gedə biləcəyi aydın olur. Yığılan vəsaitin heç olmasa yarısı yeraltı dayanacaqlar tikilməsinə sərf olunsaydı, şəhərdə tıxac probleminin həllinə xeyli kömək olardı. Lakin, bu pulun azı 80 faizinin şəxsi ciblərə getməsi şəraitində bundan söhbət belə gedə bilməz.

*Belə bir deyim var: Tarixinə sahib çıxan xalq məğlubedilməzdir. Bəli, bunu Azərbaycan xalqı, bütün dünya gördü ki, Müdrik Lider, Böyük strateq, Qalib Sərkərdə Qarabağın 30 il davam edən işğalına Ali Baş Komandanımızın nəyi, nə vaxt edəcəyi ilə "Dəmir Yumruq" siyasətnə əməl edən Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gündə son qoydu.*



# “Dəmir yumruq” Qərbi Azərbaycana qayıdışı da bərpa edəcək

*İLHAM ƏLİYEV: "Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar"*

## YENƏ DƏ NÖVBƏTİ BÖYÜK QAYIDIŞ: İLHAM ƏLİYEV SİYASƏTİNİN TƏNTƏNƏSİ

Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşündə bir daha bu əminliyi ifadə etdi ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız Qərbi Azərbaycana qayıdacaqlar. Bəli, dövlət başçımızın dediyi kimi: ”Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik”. Bəli, 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanması, məhz dövlət başçımızın nəyi, necə, nə vaxt etməsinin göstəricisidir. Prezident İlham Əliyev cənablarının Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşü zamanı yaddaqalan digər məqam isə, təşkilatın ”Azərbaycan Qaçqınlar Cəmiyyəti” adının cari ilin avqust ayından Qərbi Azərbaycan İcmasına çevrilməsidir: ”Bildiyinizə görə, avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab etdim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır. Təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir. Əsas səbəb o idi ki, burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”.




## QƏRBİ AZƏRBAYCANDAN OLAN SOYDAŞLARIMIZ TEZLİKLƏ ÖZ YURDLARINA QAYIDACAQLAR

Bəli, Qərbi Azərbaycandan olan soydaşlarımız tezliklə öz yurdlarına qayıdacaqlar. Özü də biz oraya sülhlə qayıdacağıq. Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşü zamanı bildirmişdir: ”Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər”.Göründüyü kimi, haqqdan qaçmaq olmaz və Qərbi Azərbaycan torpaqların hər qarışı bizə məxsusdur. Və gün gələcək, sözü imzası qədər qüvvətli və keçərli olan Prezident İlham Əliyev cənablarının ”Dəmir Yumruq” siyasəti ilə biz Qərbi Azərbaycana qayıdacağıq.

## QARABAĞIN, ŞƏRQİ ZƏNGƏZURUN DÖYÜŞ MEYDANINDA AZAD EDİLMƏSİ TARİXİ HADİSƏDİR VƏ AZƏRBAYCAN DURDUQCA AZƏRBAYCAN TARİXİNDƏ QALACAQ

Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşü zamanı il ərzində əldə olunan nailiyyətlərdən danışaraq, xüsusi olaraq vurğuladı ki, Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq: ”Bu il başa çatır. İl ərzində bir çox önəmli hadisələr baş vermişdir. Biz Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir. Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir”.

Dövlət başçısı onu da söyləyib ki, bu gün yerləşdiyimiz yüksəkliklərdən hətta Naxçıvan dağları da görsənir. Yəni, bu, doğrudan da tarixi nailiyyətdir: ”Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq. Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz”.

## MƏNİM ƏRAZİ İDDİAM VAR. MƏN BUNU TARİXİ HƏQİQƏT KİMİ DEYİRƏM. ƏGƏR KİMSƏ BAŞQA VERSİYANI TƏSDİQ EDƏ BİLSƏ, GƏLSİN TƏSDİQ ETSİN

Bəli, sözü imzası qədər kəserli olan Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib ki, Ermənistan bizim torpaqlarımızdır və biz öz torpaqlarımızda döyüşürük, torpaqlarımızın da bir qarışını kimsəyə vermərik. Dövlət başçısı icma üzvləri ilə görüşü zamanı bunun bir daha bildirdi: ”İndiki Ermənistan bizim torpağımızdır. Mən bunu dəfələrlə deyəndə, mənə irad tuturlar, çalışırlar irad tutmağa ki, mənim ərazi iddiam var. Mən bunu tarixi həqiqət kimi deyirəm. Əgər kimsə başqa versiyanı təsdiq edə bilsə, gəlsin təsdiq etsin. Erməni xalqı nə vaxt bizim torpaqlarımıza köçürülüb? Hamımız yaxşı bilirik. Qarabağa nə vaxt köçürülüb? Zəngəzura nə vaxt köçürülüb? Kim tərəfindən köçürülüb? Necə köçürülüb və hansı məqsədlə köçürülüb? Hamısını yaxşı bilirik. Onların bizim ərazimizdə, Cənubi Qafqazda heç vaxt dövləti olmayıb. Əgər nə vaxtsa olubsa, - hələ bəlli deyil kimin dövlətini onlar öz adlarına çıxmaq istəyirlər, - bu, başqa yerdə olub. Ona görə, biz bunları mütləq məqsədyönlü şəkildə, təşkilatlanmış qaydada, düzgün formada təqdim etməliyik. Əminəm ki, buna nail olacağıq”.Bir sözlə, dövlət başçımızın Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşündə verdiyi bu mesajları bir daha işğalçı Ermənistana növbəti xəbərdarlığından nəticə çıxarmalıdır ki, onun yeganə çıxış yolu Azərbaycanın sülh çağırışlarına müsbət cavab verməkdir. Əks halda, Ermənistanın mövcudluğu sual altında qalacaq.

## BİZ BİRGƏ SƏYLƏRLƏ QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASINI DA İŞLƏMƏLİYİK

”Erməni xalqı nə vaxt bizim torpaqlarımıza, Qarabağa, Zəngəzura nə vaxt köçürülüb? Kim tərəfindən, necə və hansı məqsədlə köçürülüb? Hamısını yaxşı bilirik”.Bu barədə Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bildirib. Onların bizim ərazimizdə, Cənubi Qafqazda heç vaxt dövlətlərinin olmadığını qeyd edən Azərbaycan Prezidenti deyib: ”Əgər nə vaxtsa olubsa, - hələ bəlli deyil kimin dövlətini onlar öz adlarına çıxmaq istəyirlər, - bu, başqa yerdə olub. Ona görə, biz bunları mütləq məqsədyönlü şəkildə, təşkilatlanmış qaydada, düzgün formada təqdim etməliyik. Əminəm ki, buna nail olacağıq”.

Dövlətimizin başçısı bildirib ki, bununla paralel olaraq biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. ”Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.Dövlət başçısı onu da bildirib ki, Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda, dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır”.Gələcək fəaliyyətlə bağlı fikirlərini bölüşən dövlət başçısı deyib ki, icma həm öz imkanları daxilində, həm də Azərbaycan dövlətinin dəstəyi ilə bu işlərə böyük yer verməlidir: ”Əminəm ki, biz buna nail olacağıq. Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah”.




**RƏFİQƏ KAMALQIZI**

# Qeyri-rəsmi sammitdə Paşinyanın fiaskosu rəsmiləşdi



***Rusiya prezidenti Vladimir Putinin təşəbbüsü ilə Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi sammiti başa çatdı. Lakin sammitdə əsas maraqlar məhz Azərbaycan, Rusiya və Ermənistan liderlərinin iştirakına, eləcə də nəticələrə tərəf yönəlmişdi. Xüsusilə Ermənistanın açıq-aşkar anti-Rusiya davranışları, danışıqlar prosesini müxtəlif qeyri-ciddi vasitələrlə uzatması ya da prosesdən imtinası, üçtərəfli bəyanatda qeyd edilmiş və sonrakı müddətdə razılaşdırılmış bəndlərə riayət etməməsi, eyni zamanda, bütün bunlara qarşı Azərbaycanın mövqeyi diqqət mərkəzində qaldı.***

## *Yaxud, intihar etmiş dəlinin Qarabağdan olan oğlu qırmızı xətti necə keçir?*

### "Kommersant" yazır ki, Peterburqda Vladimir Putinlə, İlham Əliyevlə və Nikol Paşinyanla üçtərəfli görüş hətta planlaşdırılmırdı

Bu xüsusda, Rusiyanın nüfuzlu "Kommersant" qəzetinin görüşdə diqqət çəkdiyi məqamı da xatırlatmaq yerinə düşərdi. Adıçəkilən nəşr Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanın yanından məğrur və qalib lider qismində keçməsinə, həmçinin görüşməməsinə toxunub. SİTAT: "Sonuncu olaraq Azərbaycan Prezidenti İlham Əliyev daxil oldu və Ermənistanın baş naziri Nikol Paşinyanla yanaşı dayandı, belə ki, onların ölkələrinin adları eyni hərflərlə başlanır. Ancaq yox, onlar nəinki danışmırdılar, hətta bir-birlərinə belə baxmırdılar. Peterburqda Vladimir Putinlə, İlham Əliyevlə və Nikol Paşinyanla üçtərəfli görüş hətta planlaşdırılmırdı. Sonuncu iki şəxslər bir-birlərinə baxmamalarını nəzərə alsaq həmin görüş planlaşdırıla da bilməzdi".

### Fərhad Məmmədov: "Azərbaycan və Ermənistan Rusiyaya asanlıqla imtina edirlər ki, bu da prosesləri böhranlı vəziyyətə doğru sövq edir"

Lakin başqa tərəfdən, sammit həm də öz nəticəsizliyi ilə də nəzərə çarpdı ki, üç ölkə liderlərin Sankt-Peterburqdakı toplantıları sanki Soçi sammitini xatırlatmış oldu. Bu barədə politoloq Fərhad Məmmədov da maraqlı analitikasını təqdim edib. Özünün "Mneniyafm" teleqram səhifəsində sözügedən sammitin nəticələrini təhlil edən politoloqa görə, orada yalnız üçtərəfli görüşün keçirilməməsi deyil, həm də ikitərəfli görüşlərin publik şəkildə baş tutmaması da diqqət çəkib. Fərhad Məmmədova görə, artıq belə bir ehtimal da var ki, Rusiya Laçında cərəyan edən məlum vəziyyəti Azərbaycanla ikitərəfli formatda həll etmək istəyində deyil. Bunun səbəbi isə bütün gücü ilə Qarabağla bağlı mövzularda üçtərəfli formatı saxlamaq cəhdləridir. Artıq proseslər də göstərir ki, Moskvanın nə "yerdə", nə də diplomatik sahədə gücü çatmır. Politoloq fikirlərini bu cür şərh edib. "Azərbaycan və Ermənistan Rusiyaya asanlıqla imtina edirlər ki, bu da prosesləri böhranlı vəziyyətə doğru sövq edir. Paralel olaraq Ermənistanın təhlükəsizlik şurasının katibi ABŞ-ın "Azadlıq" radiosuna müsahibəsində Rusiyanın Ermənistandan olan bütün gözləntilərini açıqlayıb", qeyd edən Fərhad Məmmədov bunu belə şərh edib:

**- müttəfiq dövlətə daxil olmaq;**

**- müttəfiq dövlətə daxil olmamış hərbi yardımın verilməsindən imtina ediləcək;**

**- iş rejiminin ilkin versiyasında Zəngəzur dəhlizindən imtina.**

Beləliklə, Qarabağ mövzusu, yəni Ermənistanın Azərbaycanın ərazilərinə iddiası hələ də bu ölkənin xarici siyasətinə sədlər qoyur. Politoloqa görə, Paşinyan iki ildir ki, bu məhdudiyyətləri öz üzərindən atmağa çalışırdı. Lakin əslən Qarabağdan olan təhlükəsizlik şurasının simasında ikinci birincini Qarabağ mövzusundan imtina etməməyə inandırmağa çalışır və bunu belə izah edir ki, zaman onlara tərəf işləyir - qısası, "Qərb bizimlədir"!

Rusiya isə öz növbəsində əmindir ki, özünün eksklüziv iştirakı ilə prosesləri canlandıra bilər. Bu ideya ağlasığmaz olsa da, təəccüblü də doğurmadı. Bu artıq trenddir.

### Paşinyan hökuməti yalan danışıb və sülh erası haqqında bəyanat pozulub

Fərhad Məmmədov qeyd edib ki, sözügedən fonda Azərbaycan istənilən proseslərə və ssenarilərə hazırdır: həm Rusiya, həm də post-Rusiya ssenarilərinə. Belə ki, Rusiya variantına görə Zəngəzur dəhlizi RF-nın nəzarəti altında yalnız 5 il qalacaq, amma 5 ilin 2-i artıq geridə qalıb. SİTAT: "Post-Rusiya, ya da Qərb variantı Azərbaycanla Ermənistanın subyektliyini artırmağı nəzərdə tutur, lakin ilk növbədə Ermənistanın öz ərazisindəki subyektliyi artır. Ancaq Ermənistan bu yerdə Qarabağa iddialarından əl çəkməlidir... Ermənistan təhlükəsizlik şurasının katibi Qriqoryanın Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın tarixi əraziləri və geri qaytarılması mövzusunda söylədiyi fikirləri barəsindəki qənaətinə görə, Paşinyan hökuməti yalan danışıb və sülh erası haqqında bəyanat pozulub. Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı hələ ərazi iddiası deyil, ancaq bu əminlikdir ki, sülh olarsa, azərbaycanlılar öz doğma torpaqlarını, qəbiristanlıqlarını ziyarət edərək mədəni irslərini geri qaytaracaqlar. Yoxsa Qriqoryan sülh dövrünü başqa cür təsəvvür edir?! Sərhədlərin açılmaması və səfərlər olmadan?! Yaxud, sülh dövrü yalnız sözlərdədir?! Axı bu Freyd qənaətidir! Qriqoryan və onun kimiləri hələ də ərazi iddialarında qalmaqdadırlar!".

### Laçın dayanışması davam edir...

Poiltoloq əlavə olaraq bildirib ki, Qriqoryanın baxışları Hitlerin baxışları ilə üst-üstə düşür. SİTAT: "İntihar etmiş dəlinin Qarabağdan olan oğlu qırmızı xətti keçir. Qriqoryan danışıqlardakı funksiyasını itirir və Hacıyev (Prezidentin köməkçisi-R.R.)-Qriqoryan formatına da yenidən baxıla bilinər. Laçın dayanışması davam edir... Turbulentlik davam edir... Lakin anlamaq lazımdır ki, turbulentlik uçuş yüksəkliyini itirmək deyil, bu yalnız hava boşluğudur ki, o sədd keçilir və təyyarə öz yolunu həmin yüksəklikdə davam etdirir!"

*Rövşən RƏSULOV*



# Rusiya erməni xainliyinin dadını görsə də...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Fakt budur ki, erməni hakimiyyətinin rəhbər dairələri Rusiyanın qarşısında bütün imkanlarından istifadə etməklə qərbyönümlü siyasətə doğru can atdıqlarını sərgiləməyə başlayıblar. Başgicəlləndirici saltoları ilə özlərini havada hiss edən həmin dairələr zaman-zaman elə Rusiya prezidentinin sözçüsü Dmitri Peskovun dediyi kimi, təxribatçı fikirlərə də yol açırlar. Misal üçün, Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Rusiyanın onun ölkəsini Rusiya-Belarus ittifaqına qoşması marağı ilə bağlı Kremlin İrəvana təzyiqlər göstərməsi, yaxud Rusiyanın Ermənistan üzərindən Zəngəzur dəhlizini açması ilə bağlı tələblərini sərtləşdirməsi, baş nazir Nikol Paşinyanın Vladimir Putinlə görüşü zamanı Qarabağda müvəqqəti yerləşmiş Rusiya sülhməramlıları kontingentinin öz işinin üzərinə ciddi düşməməsi, guya Laçın yolunun 20 gündür ki, bağlı olduğuna irad bildirməsi və s...***

Əslində, Ermənistanın siyasi rəhbərliyi Qərbə sırınmaq üçün təxminən belə bir ifadə ilə çıxış edirlər. Yəni həmin ifadə demək olar ki, belədir: "Ey Qərb, baxın və görün ki, biz nə qədər məzlum və əzabkeşik, amma buna baxmayaraq həm də nə qədər mübariz millətik ki, diktatorlara qarşı təkbaşına savaş aparırıq. Onlar (yəni Rusiya və Belarus) bizi öz ittifaqlarına zorla daxil etməyə çalışırlar, ancaq biz müqavimət göstəririk. Onlar ermənilərə düşmən olan Türkiyə-Rusiya layihəsini realizə etməyə cəhd göstərirlər, biz isə bütün gücümüzü səfərbər etməklə müqavimətimizi davam etdirməkdəyik.

Ey Qərb, bizə kömək edin, yardım göstərin, pul verin, çoxlu-çoxlu missiyalar göndərin və bizə şərait, imkan yaradın ki, belə bir dəhşətli, xalqımızı növbəti genosidlərə doğru aparan vəziyyətdən çıxmağı bacaraq. Axı ermənilər ən qədim millət və birinci xristianlardırlar. İmkan verməyin ki, sivilizasiyanın ilk bəşər övladları onlara qarşı yönəlmiş siyasət burulğanında məhvə düçar olsunlar..!"

Bax, təxminən belədir mövcud erməni yanaşması. Təbii ki, Qərbin, xüsusilə ABŞ-ın və Fransanın qapılarında daban döyən erməni siyasətçiləri aldıqları sifarişlərini məhz ermənilərə xas olan "istedadla" icra etməkdədirlər.

İndi isə keçək mətləbin real tərəflərinə. Sual yaranır: yaxşı, əgər Rusiya Zəngəzur dəhlizinin açılması ilə bağlı Ermənistana təzyiqlər göstərirsə və üçtərəfli bəyanatda tələb edilən bəndlərə rəğmən, Ermənistan öz tərəfində dəmir yolunun açılması üçün bir dənədə də olsun mismar vurmayıbsa, həmin faktı necə təzyiq kimi adlandırmaq olar? Yaxud, təzyiq olsaydı, indi situasiya tamamilə başqa cür cərəyan edərdi və bunu da hər kəs çox yaxşı bilir...

Amma bunu da qoyuruq bir tərəfə. Məhz Ermənistanın hay-haray salıb Qərbdən imdad diləməsinin ardınca Qərbdəki havadarlarının gözləri qarşısında belə bir mənzərə yaranır ki, sən demə yazıq və məzlum ermənilər Rusiyanın qamçı zərbələri və Türkiyə ilə Azərbaycanın təzyiqləri altında dörd tərəfdən "əzilir" (?!) Ancaq onu da etiraf edək ki, hər halda Vaşinqtonda, Brüsseldə və s. siyasi mərkəzlərdə elə də ağılsız adamlar oturmayıblar və onlar da reallıqda ermənilərin hay-küylərinin nəyə hesablandığını yaxşı bilirlər. Yaxud, Armen Qriqoryanın fikirlərini ciddiyə almırlar. Fəqət, daha bir etirafı da edək ki, yenə də Vaşinqtonda və Brüsseldə ermənilərə "dəstək qrupları", "yaxud ictimai fikirlər" mövcuddur.

Təbii ki, belə bir şəraitdə biz müxtəlif kanallarda və analitik mərkəzlərdə olmayan, yaşanmayan bir olayın "olan", "yaşanan" kimi göstərilməsinin şahidlərinə çevriləcəyik. Məsələn, bir də görəcəyik ki, hansısa siyasi analitik mərkəz balaca və "müqavimət" göstərən "azad Ermənistanın" ayaqda qalması üçün "şər qüvvələrə" qarşı "qəhrəmanlıq mücadiləsi" haqqında nağıllar danışacaq, həmin nağılları tirajlayacaq və s...

Amma həqiqət naminə etiraf edək ki, belə mərkəzlərin yadlarına düşməyəcək ki, məhz Rusiya zamanında Ermənistana təmənnasız və çoxmilyardlı hərbi dəstəklər, yardımlar göstərib, rus qazı 30 il Ermənistanı qızdırıb, Rusiyada yüz minlərlə erməni özünə iş taparaq varlanıb və s... Bunları yada salan olmayacaq. Lakin bu da bizim marağımızda deyil. Bizim marağımızda olan Qarabağdır, Zəngəzurdur və bundan sonra Ermənistan nə qədər özünü məzlum və əzabkeş göstərməyə cəhdlər edəcəksə belə Azərbaycan öz qətiyyətli və haqlı tələblərindən əsla geri dönməyəcək. Prezidentimizin də dediyi kimi, kimlərsə zənglər edə bilərlər və həmin zənglər yalnız (!) nəzakət xətrinə cavablandırıla bilər...

P.S. Gec olar, güc olar deyiblər. Gec də olsa Rusiya artıq neçənci dəfədir ki, ermənilərin xainliklərinin aşkar şahidinə çevrilir və bundan da gec olsa yenə də Rusiya itirəcək. Azərbaycan isə öz məqsədini gerçəkləşdirməsinə doğru inamla getməkdədir!

# Senatorlardan Makrona çağırış: Azərbaycana hərbi müdaxilə et (?!)



### Gələcəkləri olsa, görəcəkləri mütləq olacaq!

Fransanın "Le Monde" qəzetində ölkə senatının 11 deputatın prezident Emmanuel Makronun ünvanına açıq məktubu dərc edilib. SİA xəbər verir ki, fransız deputatlar Makrona çağırış edərək bildiriblər ki, Fransa Ermənistanı öz protektoratına götürməli və Qarabağı hərbi müdaxilə ilə ələ keçirməlidir.

Sözügedən bədnam məktubu Fransa respublikaçılar pariyasının sədri Erik Çotti, Fransa Sosialist partiyasının baş katibi, deputat Olivye For, Birləşmiş demokratlar və müstəqillər partiyasının rəhbəri, senator Erbye Marsel, Fransa kommunistləri partiyasının baş katibi Fabyen Russel, Fransa senatının müdafiə və xarici işlər komitəsinin sədri Kristian Kambo, senatın respublikaçılar fraksiyasının sədri BrunaRatayo, senatın kommunistlər fraksiyasının sədri Qiyom Qontar, senatın sosialistlər-ekoloqlar fraksiyasının sədri Patrik Kanner, senatın "Fransa-Ermənistan" dostluq qrupunun sədri Jilber-Lyuk Devinaz və senator Pyer Uziliya imzalayıblar.

### Məktubu imzalayanlar məhz Fransa hökumətində Azərbaycanın əleyhinə qətnamə qəbul edən üsnürlərdirlər

Bu bədnam, aqressiv, eləcə də müharibə ritorikalı həyasızlıq davranışını şərh edərkən bir daha belə bir qənaətə gəlmək olar ki, həmin məktubu imzalayanlar məhz Fransa hökumətində Azərbaycanın əleyhinə qətnamə qəbul edən üsnürlərdirlər. Məhz onlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ iqtisadi rayonunu ərazisində bilavasitə Ermənistanın işğalçılıq siyasəti sayəsində qurulmuş separatçı-cinayətkar rejimin ölkələri tərəfindən tanınmasını tələb ediblər. Bu ünsürlər Yeliseyi Bakıya qarşı sanksiyalar tətbiq etməyə çağırmaqla Fransanın erməni diasporunun maraqlarını müdafiə ediblər. Və ən əsası - məktubu imzalayanların da vəzifələri göstərir ki, əslində Fransa siyasətçilərinin əhəmiyyətli çoxluğu nə qədər erməni lobbisinin təsirləri altına düşməklə fəaliyyət göstərirlər. Bu, Fransa siyasətinin, yaxud Fransanın tarixi dövlətçilik ənənəsinin açıq-aşkar iflası və rüsvayçılığıdır. Əgər belə olmasa idi, hətta növbəti dəfə Azərbaycanın ərazilərini işğal etməyə hesablanmış sözügedən məktub Fransanın aparıcı nəşrində dərc edilməzdi!

Beləliklə, açıq məktubda erməni ultramillətçiləri tərəfindən pulla satın alınan və imza atan fransız siyasətçilər Makrondan tələb edirlər ki, o, "Ermənistanın təhlükəsizliyini təmin etsin" və Qarabağı Azərbaycanın suverenliyindən çıxarsın (?!)

Bakı isə həmin bədnam məktubda "ermənilərə qarşı cinayətlərdə" ittiham olunub, hansı ki, bütün dünya ermənilərin 30 il boyunca azərbaycanlılara qarşı hansı cinayətlər törətdiyini çox yaxşı xatırlayır və bilir!

Məktubda Fransanın Ermənistanın Azərbaycanla yeni müharibəyə başlamasına və qızışdırılmasına yardım etməsi barədə sözün əsl mənasında səfeh ifadələr yer alıb. Həmin söz yığnağında bildirilir: Fransa Aİ və ABŞ-dan Azərbaycana qarşı sanksiyalarının tətbiqini tələb etməli, BMT sülhməramlılarının Azərbaycana göndərilməsi ilə bağlı Beynəlxalq Cinayət Məhkəməsində iddia qaldırmalı, Qarabağ iqtisadi rayonuna hərbi müdaxilə edilməli, hərbi əməliyyatlara başlanılmaslı, Xankəndi yaxınlığında işğalçıların tikdiyi hava limanı işə salınması və Qarabağ səması Azərbaycan üçün bağlanmalıdır (???!!!)

### Beləliklə, faktlar tam çılpaqlığı ilə ortadadır

Erməni lobbisinin nökərləri olan fransız siyasətçilər Makrona çatdırıblar ki, əgər Makron bu tələbləri yerinə yetirməyi bacarsa Fransa "dünyəvi dəyərlərə", həmçinin "şərəfli adına", "milli-siyasi ideyalarına" nə qədər "sadiq qaldığını" dünyaya sübut etmək imkanını əldə edəcək.

Beləliklə, faktlar tam çılpaqlığı ilə ortadadır və çox yəqin ki, Fransa senatının satılmış siyasi fahişələri (senator adına layiq deyillər-R.R.) bir daha dünyaya sübut etdilər ki, reallıqda onların ölkələri nə qədər iflasa uğrayıb və erməni lobbisinin girovuna çevrilib!

**Rövşən RƏSULOV**

***P.S.** Nə deyirik, gələcəkləri olsa görəcəkləri 100 deyil, 1000 faiz olacaq. Təbii ki, cürətləri çatırsa, amma çata bilərmi..?*

# "Suverenliyimizin Qarabağda tam təmin olunacağı gün uzaqda deyil"

***"Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin bildirib ki, Laçın yolu ətrafında baş verən hadisələr sülh müqaviləsi də daxil olmaqla, ümumi müzakirə mühitini çətinləşdirir. Rusiya tərəfi vəziyyətin yerində nizamlanması üçün ciddi səylər göstərir.***



Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasını və bütün istiqamətlərdə birgə işin tezliklə bərpasını gözləyirik. Qaluzinin sözlərinə görə, bu halda sənədin təsdiq olunma tarixi o qədər də vacib deyil: "Əsas odur ki, Bakı və İrəvan regionda sabit və ədalətli sülhə təminat verəcək qarşılıqlı məqbul həllə nail ola bilsin". Göründüyü kimi, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin verdiyi bəyanatda diqqəti daha çox sülh müqaviləsinin imzalanması zərurətinə yönəltmişdir". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Abutalıb Səmədov qeyd edib ki, Laçın dəhlizində və Xankəndidə yaradılan böhranda kimin günahkar olması barədə onun rəhbəri, Rusiya Xarici işlər naziri S.Lavrov C.Bayramovla keçirdiyi mətbuat konfransında son dərəcə açıq danışdı: "O, xatırlatdı ki, ekoloqların əraziyə səfəri barədə razılıq əldə olunsa da, sonradan razılaşma pozuldu. "Təəssüf ki, bu razılaşma nə Azərbaycan tərəfinin, nə də rus sülhməramlılarının təqsiri üzündən pozulmadı"-deməklə Lavrov günahın erməni tərəfində olduğunu açıq şəkildə bildirdi. Bu, Rusiya dövlətinin rəsmi mövqeyidir və hər dəfə təkrar olunmasa da geniş ictimaiyyətə yaxşı məlumdur. Ancaq həmin mətbuat konfransında dolayı yolla da olsa təxribatı R.Vardanyanın təşkil etdiyini söyləyən rus nazir "günahsız" sülhməramlıların onu Qarabağa hansı əsasla buraxdıqlarının üstündən sükutla keçdi. Dekabrın 22-də Rusiya vətəndaşlığından məhrum edilən və heç bir vətəndaşlığı olmayan Vardanyanın ay yarım əvvəl "dövlət naziri" təyin edilməsinə, hələ də Qarabağda qalmasına və oradan çıxarılmamasına da aydınlıq gətirilmədi. Məşhur bir deyim var. Azərbaycan-Ermənistan münaqişəsində Rusiya kimin tərəfindədir-sualının cavabı belədir: münaqişənin. Son hadisələr bir daha göstərdi ki, Rusiya həqiqətən də münaqişənin tərəfindədir və onun alovlanması üçün əlindən gələni edir. Ancaq son günlər baş verən hadisələr bir daha onu da göstərdi ki, bütün təxribatlara baxmayaraq Azərbaycan hakimiyyəti öz planları əsasında hərəkət edir və suverenliyimizin Qarabağda tam təmin olunacağı gün uzaqda deyil".

**Gülyana**



## Səhiyyə yamaqları

**Mətanət Məmmədova**

***Bu gün oxuduğum bir xəbərlə bundan başqa qənaətə gələ də bilməzdim. İnsanların sağlamlığı ilə alver edənlər görəsən bununla onlara sağlamlıq bəxş edirlər, yoxsa sağlamlıqlarını əllərindən alırlar? Bəlkə qəsdən bu hərəkətləri ilə vətəndaşları xəstə edib özləri üçün gəlir mənbəyinə çevirirlər.***

Məlumata nəzər salaq. Masallı rayonunun baş həkimi Eşqin Əliyev Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən vətəndaşdan rüşvət alarkən yaxalanıb. Məlum olub ki, əməliyyat tədbirləri ilə Eşqin Əliyevin cari il ərzində vətəndaşlara teqaüdün təyinatı, xəstəliklərə dair göndərişin elektron informasiya sisteminə yüklənməsi, eləcə də xəstəxanada şəxslərin işə qəbul edilməsi, ixtisasının dəyişdirilməsi müqabilində müxtəlif məbləğlərdə rüşvət almasına əsaslı şübhələr müəyyən edilib. Eşqin Əliyevin üzərində və xidməti otağında axtarış aparılan zaman iş üçün əhəmiyyət kəsb edə biləcək sübutlar aşkar edilib.

Qeyd edilənlərlə bağlı cinayət işi başlanıb, Eşqin Əliyev Cinayət Məcəlləsinin 311.3.2 (təkrar rüşvət alma), 178.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə dələduzluq) və digər maddələri ilə təqsirli bilinərək barəsində həbs qətimkan tədbiri seçilib. İş üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Daha maraqlısı isə budur ki, məlumata əsasən Eşqin Əliyev son iki ildə Masallı xəstəxanasının baş həkimi vəzifəsindən kənarlaşdırılan sayca 3-cü şəxsdir. Belə ki, 2021-ci ilin yanvarında xəstəxananın əvvəlki baş həkimi Cəlil Nəzərov 675 min manat mənimsəməkdə ittiham olunaraq həbs edilib. Cəlil Nəzərovdan sonra baş həkim təyin edilən Rasim Əzizov da qalmaqallı şəkildə işdən çıxarılıb. Belə ki, keçən ilin payızında R.Əzizovun marketlərdən birində oğurluq etməsini iddia edən görüntülər sosial şəbəkələrdə və mediada sürətlə yayılıb. Bundan sonra xəstəxananın baş həkimi 2021-ci ilin noyabrında işdən çıxarılıb. Bəxtəvər səhiyyəmizin başına...

Həqiqətən də atalarımız lap yerindəcə deyiblər: utanmasan oynamağa nə var ki... Masallının baş həkimləri də utanmadan oynayıblar, lakin unudublar ki, rəqslərini kənardan seyr edənlər də var. İnsanların sağlamlığı ilə oynamaq pul yığmaq, varlanmaq eşqində olanların özlərini oyuna salıb.

Çox təəssüfedici haldır ki, məhz Masallıda bir-birinin ardınca belə baş həkimlər peyda olub. Bəs insanlar sağlamlıqları üçün bu rayondan çıxıb hara getməlidirlər? Bu rayonun sakinlərinin sağlamlıq taleyi görün kimlərin öhdəsinə buraxılıbmış. Bunlar bir-birinin ardınca elə bil insanların qəsdinə düzülübmüşlər.

Həkim adına yaraşmayan hərəkətlərin, əməllərin son ünvanı elə həbsxana olmalıdır. Beləleri bəlkə insan sağlamlığı ilə oynamağın nə demək olduğunu bu yeni ünvanlarında daha yaxşı anlayarlar. Görünür baş həkim otağı bunlar üçün yetərli ünvan olmayıb. Burada yalnız səhiyyəyə yamaq rolunu icra ediblər.

Səhiyyə adına yamaq olanlara ar olsun!

# Şəhid ailələrinə gəlir vergisi üzrə güzəştlər veriləcək



2023-cü il üçün Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdən biri də şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının vergi tutulmalı olan aylıq gəlirləri (əməkhaqqı gəlirləri) ilə bağlı 800 manat məbləğində vergi güzəştinin verilməsi, 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri) ilə yanaşı, övladlarına da vergi tutulmalı olan aylıq gəlirləri (əməkhaqqı gəlirləri) ilə bağlı güzəştlərin verilməsidir. Dövlət Vergi Xidmətindən S?A-ya bildirilib ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, şəhid ailələrinin, müharibə veteranlarının və digər formada zərərçəkmiş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

Məlum olduğu kimi, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda öz canından keçmiş şəxslərin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Belə ki, sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəhid ailələri və müharibə əlillərinə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir, habelə onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və digər sosial tədbirlər həyata keçirilir. Bu siyasətin davamı olaraq şəhid ailələrinə dövlət qayğısının daha da artırılması, onların sosial rifah səviyyəsinin yüksəldilməsi istiqamətində atılan addımlardan biri kimi, bu kateqoriyadan olan şəxslərin aylıq gəlirlərinin 800 manat olan hissəsinin gəlir vergisindən azad edilməsi nəzərdə tutulur.

Eyni zamanda, 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri) ilə yanaşı, övladlarının da hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılacaq. Belə ki, hazırda 100 manat məbləğində gəlir vergisi üzrə azadolma yalnız bu kateqoriya üzrə şəxslərin valideynlərinə və arvadlarına (ərlərinə) münasibətdə tətbiq edilir.

# Onlayn bayramlaşma



FELYETON

-Süleyman, qabaqdan bayram gəlir. Düz beş gün evdəyik. Nə edəcəksən? Planın nədir?

-Ə nə edəcəyəm ki? Gör nə vaxtdı bilet almışam. Gedəcəm Türkiyəyə.

-İşin-gücün qurtarıb ey, bir gün getmək, bir gün gəlmək, üç gün Türkiyədə nə edəcəksən ki? Həm də bu qışın günündə.

-Deyirəm, Səxavət, heç elə bil bu dünyanın adamı deyilsən ey. Ə, Allah versin elə o üç günə. Nə edəcəm ki, gəzib-dolaşıb gələcəm.

- Ailə-uşaqla gedirsən, yoxsa?..

-Yox əşi, tək gedirəm, qışdı, oturublar da evdə. İş-gücləriylə məşğul olsunlar.

-Mən dedim bəs rayona gedərsiniz, birlikdə.

-Ə, başın xarab olub, bu qışın günündə rayonda nə var. Rayonunku yaydı. Göndər uşaqları, gedib üç ay tətili otursunlar rayonda, istirahət eləsinlər. Özün də aradabir get-gəl, günün keçsin. Bəs heç soruşmuram, sən hara gedəcəksən?

-İstəyirəm gedim rayona, atamanam təkdilər, uşaqları da aparam, yeni ili birlikdə qarşılayaq, bayramlarını da təbrik edək, gələk.

-Vallah, işin-gücün qurtarıb sənin. Ə, indi nə tək qalmaq, elə camaat tək qalmaq, yaşamaq istəyir də. Mənimkilər də təkdi də evdə. Keçən il də yeni ildə getməmişdik rayona. Açdıq kompüteri, toplaşdıq başına. Görüntülü danışdıq, görüşdük, bayramlaşdıq. Allah bu telefon çıxaranın balasını saxlasın. Qalırdıq bu yollarda. Ay nə bilim, bu gün yeni ildi, sabah, Qurbandı, o biri gün Ramazandı, Novruzdu. Ta o biri gün dədəmin ad günüdü, o biri gün anamın yubileyidi. Dur saatlarla yol get, çat rayona, yorğun-arğın, heç bilmirdin yediyin nədir, içdiyin nədir, istirahətin nədir. Bir-iki gün firlan oralarda, sonra da eyni yorğunluqla bu qədər yolu qayıt geri. Ə, heyif deyil indiki zəmanə. Bayramdı, telefonu açırsan, əziz ata, əziz ana, bayramınız mübarək olsun. Öpürük sizi, bağrımıza basırıq. Uşaqlar bir tərəfdən, arvad bir tərəfdən danışdı, qurtardı getdi. O gün də dədəmin ad günüydü, zəng vurduq, hamımız danışdıq. Təbrik etdik. Kişinin ürəyi dağa döndü. Vallah, ona görə həmişə deyirəm ki, bu telefon, internet çıxaranın Allah atasına rəhmət eləsin. Bizi qəribə qayğılardan qurtarıb ə, bu telefon.

- Nə deyim, ay Süleyman. Mən getməsəm, ürəyim rahat olmur ey.

-Səxavət, sən Allah, boş ver, indi ta əvvəlki illər deyil ey. Müasir dövrdü. Kimdi gündə bir bayramdan, ad günündən yana rayona gedən. Hamı bayramları da, ad günlərini də telefonla təbrik edir, qurtarıb gedir. Vallah, biz yeddi bacıqardaşıq, elə beşimiz burda yaşayırıq. Hamımız da belə edirik. Ordakılar gedirlər də, yanlarında olurlar. Ay qardaş, dünya müasirləşib ey, gərək ayaqlaşa biləsən. Görünür sən hələ bu müasirliklə ayaqlaşa bilmirsən. Ağlın olsun, dəqiqədə bir rayonda nə var ki? Ağlını başına yığ, sən də mənim kimi elə. Bir gün gəlib deyərsən ki, Süleyman, Allah ölənlərinə rəhmət eləsin, mən də dediyin kimi elədim, ə, bu nə yaxşı şey imiş. Əziyyətsiz-filansız.

-Süleyman, beş günlük dünyadır, bir də görəcəksən ömürləri başa çatdı, dünyaları dəyişdilər. Adam istəyir ki, bir yerdə tez-tez olsun.

-Ay qardaş, telefonla danışanda da bir yerdə olursan da. Bir şey ki, üz-üzə dayanmısan, danışırsan. Yanı bunun fəqri var?

***

Səxavət ta bundan sonra danışmır. Süleyman da hərdənbir onun üzünə baxır, "niyə dinmirsən, ə",- deyir. Lakin Səxavət cavab vermir, sadəcə gülümsəyir. Aradan bir az keçir. Süleymanın telefonuna zəng gəlir. Məlum olur ki, bacısıdır, rayondan zəng vurub ki, bəs yoldaşının əmisi rəhmətə gedib. Süleyman da deyir ki, qayınatan olsaydı, sənin xətrinə gələrdim. İndi yoldaşına zəng vurub başsağlığı verərəm.

* * *

Süleyman əvvəlcə bacısının yoldaşına, sonra rəhmətliyin oğluna zəng edir, başsağlığı verir. Dilağız edir: özünüz bilirsiniz də, vallah, iş-gücdən adam baş aça bilmir ki. Bir saat vaxt tapmaq olmur.

* * *

Bu arada Səxavət yenə gülümsəyir.

Süleyman:

-Nəyə gülürsən, mən ölüm.

-Sənə gülürəm, ay Süleyman, nəyə güləcəyəm? Ə, qardaş, sən ta hər şeyi onlayn eləmisən ki?..

**Mətanət Məmmədova**



Təhmasib Novruzov

# Ötən ilin son yazısı

***Tariximizin daha bir ilini başa vurmaqdayıq. Bütün illər kimi 2022-ci il də gethagetdə bizi ötən 365 gecə və gündüz haqqında düşünməyə, nələr olduğu, nələrin olmalıykən olmadığı, nələrin olmamalıykən olduğu barədə özümüzün özümüzə hesabat verməyə vadar edir. Baxaq görək yola salmağa hazırlaşdığımız 2022-nin bu baxımdan hesabatında nələrə daha çox sevinirik, nələri daha çox kədərlə xatırlamağa məcburuq.İnsanlığın ümumi evi olan Yer adlanan planetin ən kədərli hadisəsindən - Rusiya-Ukrayna savaşından başlayaq. Bəşəriyyəti növbəti dünya savaşının astanasına qədər sürükləyən bu qanlı savaşın bir vaxtlar Qafqazdan başlanacağı gözlənilirdi.***

Əslində yanılmırdılar. Çünki Azərbaycanın gec-tez işğal olunmuş torpaqlarını azad etməyə qalxacağına heç kim şübhə etmirdi. Dünyanın erməni vurğunları, daha doğrusu "erməniçilik layihəsi"nin müəllifləri isə bu "azadolma"nı həzm etməyəcəklərini düşündüklərindən, kürəmizin başbilənləri üçüncü dünya savaşının burdan başlanacağını proqnozlaşdırırdılar. Amma Azərbaycanın siyasətdə, diplomatiyada, atılacaq addım üçün zamanın, tarixi məqamın dəqiqliklə seçilməsindəki müdrikliyi gözləntiləri puça çıxardı. Nəticədə Azərbaycan ərazilərini azad etdi və üçüncü dünya savaşı da başlamadı. Şükür! Amma Ukraynanın da, Rusiyanın da siyasi, diplomatik yanlışlıqlarından çox məharətlə yararlanan kürəsəl güclər məhz bu ilin 22 fevralından başlanan müharibəni ustalıqla dünya savaşına çevirməyi bacardılar. Böyük güclər etiraf etməsələr də, artıq üçüncü dünya savaşı başlayıb və davam edir. Allah axırın xeyir eləsin!.. Uzaq Şərqdə, Yaxın və Orta Şərqdə, Balkanlarda, Latın Amerikasında və Afrikanın bəzi bölgələrində də baş verənləri hesaba alsaq, yəqin ki, dünyamızın çox ciddi məhvolma təhlükəsi ilə üz-üzə olduğunu düşünməyimizdə, anadolular demiş, bir sakınca olmaz.

Gələk regionumuza. Türk Dövlətləri Təşkilatının yaranması və aybaay irəli doğru iri addımlar atması təkcə regionu yox, dünyanı bəlalardan xilas edə bilər. Yada salaq ki, islam peyğəmbərinin hədislərinə görə "türklər rəbbin yer üzərində vuran qoludur və nə zaman dünya düzənindən çıxarsa, rəbbim türklərin əli ilə onu düzənə qaytarır!" Bu mənada TDT-nin aybaay artan gücünün arxasında rəbbin dəstəyinin olduğu şəksizdi. Di gəl özünü islam dünyasının bayraqdarı hesab edən (yazıq o hümmətə ki, onun bayraqdarı belə ölkə olacaq), İran adlana molla rejimi rəbbin də dəstək verdiyi bu düzənəsalma prosesinə ən güclü manea olmağa can atır. Türkün yenidən bir araya gəlməsi onun şəltəsinin işləməməsi ilə nəticələnəcəyini gözəl bilən bu rejim allaha qarşı çıxmaqdan da çəkinmir. Rəbbim də baxıb gördü ki, bu "islam bayraqdarı" onun istəyini pozmağa çalışır, içinə bir vəlvələ saldı ki, gəl görəsən. İndi mollalar qalıblar neyniyək, necə eliyək vəziyyətində. Yəni bu məmləkətin sakinlərinin istəklərini yerinə yetirəcəksə, bu, mollaların ən çox qorxduğu bir nəticə ilə conuclanacaq, Türkiyə yüz illərdir siyasətlə ondan ayrı salınmış türk dünyası ilə birləşəcək. Aralıq dənizindən Yapon dənizinə qədər avrasiya materikini əhatə edən türk dünyasının bir zindana vuracağının molla rejiminə nələr vəd etdiyini düşünməyə belə ehtiyac yoxdu. İranın dünyada olan iki dostu - Ermənistanla Fransanın da bu siyasətdə mollalarla həmfikir olmaları anlaşılandı. Rəbbim erməninin onsuz da olmayan ağlının tamamını da ondan aldı və indi o qədər çaşıblar ki, kim nə deyirsə, "hə" deyib yüyürür onun yanına. İt hürən tərəfə gedir, istədiyini ala bilmir, qaçır işıq gələn tərəfə. O da olmayanda üz tutur buzlaqlara doğru.Ta ağıl yoxdu dərk eləsin ki, onun tək bir xilas yolu var: türk dünyasına üz tutub, qələt eləmişik, nəsə yemişik deyib, haqqa qayıtmaq! Haylar görmədilərmi ki, İran bizə hürdü, rəbbim də 80 milyon əhalini onun üstünə qaldırdı. Fransa bizə diş qıcadı, rəbbim Dərviş Məstəli şahı göndərdi, əlixaları, vəlixaları firəngLərin özlərinin maliyyəsi ilə at oynadan PKK-çılar donunda yanına alıb Parisi partaparta tutdu. Və hələ firəngləri daha dəhşətli hadisələr gözləyir. Çünki Dərviş Məstəli babamız başladığı işi yarım buraxmağı heç, həm də heç xoşlamır.

Xülasə, ilin son yazısını belə bədbin notlarla bitirmək istəmirəm. Bu il ərzində bizim böyük dünyadakı kiçik məmləkətimizdə baş verənlərin, demək olar hamısı nikbin gələcəyə böyük ümidlər yaradır. İl ərzində həm iqtisadiyyatda, həm sosial həyatda, həm cəmiyyətin digər sahələrində əldə olunan nailiyyətlərdən danışsaq, gərək kitab bağlayaq. Amma VƏTƏNimizin bütövləşməsi yolundakı bir-iki addımı xatırlatmadan keçə bilmərəm. Laçınımızın tamamən azad edilməsi, Ermənistan adlanan məmləkətlə sərhəddə bütün yüksəkliklərə sahib olmağımız, Laçın-Xankənd yolundakı qətiyyətli aksiyanın dünyadakı əks-sədası (erməni lobbiçilərinin elə-ayaqdan getməsinə rəğmən).Vallah, elə bunları sadalamaq kifayətdir ki, bizim 2022-ni nikbin ahval-ruhiyyə ilə yola salmağımızı qətiyyətlə deyə bilək...

Xoş gəldin, xoş da getdin, 2022!

Qədəmlərin mübarək 2023! Rəbbim nizamı pozulmuş dünyanı nizama salmaq yolunda vuran qolu türklərə dəstəyini 2023-də də əsirgəməsin, inşaallah. AMİN!

*Rusiyalı iqtisadçı, Yeni Cəmiyyət İnstitutunun direktoru, politoloq Vasili Koltaşov "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistan-Azərbaycan nizamlanmasında yaranmış vəziyyət və Ermənistanın təxribatları ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.*



# Vasili Koltaşov: "Paşinyan Qərbdəki ağalarına samuray kimi xidmət edir"

**- Bildiyiniz kimi, bu həftə Ermənistan Laçın yolu ətrafında "problemlər" olduğunu əsas gətirərək, Rusiya və Azərbaycanın xarici işlər nazirləri ilə Moskvada görüşməkdən imtina etdi. Bu, İrəvanın danışıqları və nəticədə Bakı ilə sülh müqaviləsini uzatması üçün daha bir bəhanə deyilmi?**




- Məsələ burasındadır ki, Rusiyada bir çoxları diqqəti Vladimir Putinin Ermənistanda keçirilən KTMT iclasında şəxsən iştirak etdiyi və Nikol Paşinyanın yekun sənədi imzalamaqdan imtina etdiyi G20 sammitinə getməməsinə yönəldib. Rusiyada tez-tez belə hesab olunur ki, Ermənistan və Azərbaycan münaqişənin həllində maraqlı deyillər, baxmayaraq ki, mənim fikrimcə, Azərbaycan tərəfi ən azı öz məsələsini bağlamaqda daha maraqlı görünür, Paşinyan isə açıq şəkildə regionda yeni böhran yaratmağa çalışır. Ona görə də Ermənistanın Laçın yolu ətrafındakı problemi əsas gətirərək Moskvada Rusiya və Azərbaycanın xarici işlər nazirləri ilə görüşdən imtina etməsində təəccüblü heç nə yoxdur. Çox güman ki, bu, arxasında ABŞ və İngiltərənin dayandığı mürəkkəb oyunun bir hissəsidir.

**- Ermənistan Zəngəzur dəhlizinin işə salınmasını gecikdirir, onun açılması Rusiya üçün də faydalıdır. Moskva bu istiqamətdə Ermənistana kifayət qədər təsir rıçaqlarından istifadə edirmi?**

- Əgər Ermənistan Zəngəzur dəhlizinin işə salınmasını gecikdirirsə, bunu Rusiyadan soruşmaq lazım deyil. Moskva Ermənistan rəhbərliyinə kifayət qədər təsir göstərə bilmir, ona görə də vəziyyətin ikililiyi özünü göstərir. Bir tərəfdən İrəvanda hamı deyir ki, Ermənistan Moskvanın Qafqazdakı müttəfiqidir, Rusiyada çoxları bununla razılaşır, amma problem ondadır ki, bu müttəfiqin başında siyasətçi yox, Rusiyanın qatı düşməni, təcrübəli, təcrübəli siyasətçi Nikol Paşinyan dayanır, hansı ki, lazım gəlsə, erməni xalqını və Ermənistanı məhv edəcək. Əslində o, çoxdan bu yolla gedir, əks halda 2020-ci ildə vəziyyəti hərbi münaqişəyə gətirməzdi. Fərqli qüvvələr nisbətini, ən əsası isə səhvini başa düşərək Azərbaycanla sülh müqaviləsinə razılaşa bilərdi və indi ermənilərlə azərbaycanlılar arasında belə böyük nifrət olmazdı.

Digər tərəfdən, xarici agentlərlə doldurulmuş və Vaşinqtondan asılı olan Ermənistan rəhbərliyi heç bir halda Rusiyaya dostluq edə bilməz. Əks halda, 2021-ci ildə münasibətləri həll etmək mümkün olardı. Rusiya Ermənistana təzyiq göstərməyə çalışır, lakin bu təsirin həddi məhduddur və dediyim kimi, Rusiyanın qatı düşməninin rəhbərlik etdiyi müttəfiqə münasibətdə sözün əsl mənasında ziddiyyətdə qalır.

**- Azərbaycanlı fəalların Laçın yolunda davam edən aksiyası erməni tərəfi bütün dünyaya Qarabağın mövcud olmayan 120 min ermənisini "humanitar böhran" kimi təqdim edir. Ermənistanın vəziyyəti gərginləşdirməkdə məqsədi nədir?**

- Bu problemə daha dərindən baxsanız, Ermənistan rəhbərliyinin bu vəziyyəti böhrana gətirdiyi açıq-aşkar görünür. Nikol Paşinyan faktiki olaraq KTMT çərçivəsində qarşılıqlı fəaliyyətdən imtina etdiyi halda, mövcud vəziyyətdən narazı qalaraq, Azərbaycanla danışıqlar prosesini çaşdıraraq, süründürürdüsə, artıq bu böhranın yaranmalı və hansısa formada özünü göstərməli olduğu aydın idi. O da aydındır ki, Azərbaycan rəhbərliyi indiki vəziyyətdən razı qala bilməz, lakin tərəflərin bir-birinə qarşı hərəkətlərinin heç də dostcasına olmadığı aydındır. İndiki mərhələdə vəziyyəti ABŞ və Böyük Britaniyanın son dərəcə maraqlı olduğu yeni kəskinləşmədən və yeni münaqişədən saxlamaq çox çətinliklə mümkündür. Bu iki güc Qafqazda yeni müharibəyə can atırlar ki, Rusiya da bu müharibəyə qarışsın.





**- Paşinyanın Qərblə yaxın əməkdaşlıq etməsi Ermənistan üçün necə nəticələnəcək?**

- Paşinyan Qərblə əməkdaşlıq etmir, bu, bir çoxlarında yanlış fikirdir. Paşinyan Qərbin xidmətindədir və samuray öz ağasına necə xidmət edirsə o da elə edir. Bəlkə də Paşinyan ekstremal vəziyyətdə "seppuku" etməyəcək, sadəcə olaraq ölkədən qaçacaq, amma onun bütün kabineti kimi Qərbə də xidmət etməsi birmənalı deyil. Ermənistan rəhbərliyi sosial-iqtisadi xüsusiyyətlərinə görə, ölkədən ixtisaslı vətəndaşların axınını çox asan spekulyasiya edərək xalqı aldadır. Eyni zamanda, Qarabağda 44 günlük müharibədə hərbi məğlubiyyətə düçar olmasına baxmayaraq, Paşinyan hələ də hakimiyyətdə qalmağı bacarır. Ona görə də hesab edirəm ki, Paşinyanın devrilməsinə məhz Qərbin zəifləməsi səbəb olacaq.



**- Qərb də İrəvanda anti-Rusiya isteriyası qızışdırır?**

- İrəvanda zaman-zaman alovlanan anti-Rusiya isteriyası dəstəklənir və illər keçdikcə daha da güclənir. O, Paşinyanın hakimiyyətə yenicə hazırlaşdığı bir vaxtda formalaşıb. Ona görə də indi deyə bilərik ki, Qərb və Avropa bürokratiyası Rusiyanı zəif göstərmək, ona həm Ermənistan, həm də Azərbaycanla münasibətlərdə problemlər yaratmaq, nəhayət, Rusiyanı iflic etmək üçün Qafqazda vəziyyəti sabitləşdirməkdə son dərəcə maraqlıdırlar. Baxmayaraq ki, təbii ki, Rusiyanın maraqlarına uyğun olaraq Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli, eləcə də bütün regionun gələcək iqtisadi inkişafı Moskva, Bakı və İrəvan üçün sərfəlidir.

**- Bakı ilə İrəvan arasında hansı şərtlərlə sülh müqaviləsi imzalana bilər?**

- Bu gün üçün ən çətin sualdır, sadaladığım nüansları nəzərə alaraq deyərdim ki, inanılmaz dərəcədə çətindir. Düşünürəm ki, bu, Co Baydenin istefası şərti ilə mümkündür. O, Vaşinqtonda hakimiyyətdən uzaqlaşdırılmalı, ABŞ öz siyasətini dəyişməlidir, Britaniyada Mühafizəkarlar Partiyası kütləvi xalq etirazlarının təzyiqi altında süqut etməli, Avropa İttifaqı isə ağır ictimai-siyasi vəziyyətə düşməlidir. Yalnız bundan sonra Paşinyan dəstəyi itirəcək və Ermənistanın yeni rəhbərliyinin Bakı ilə münasibətləri yeni formada qurması artıq mümkün ola bilər.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
29 dekabr
2022-ci il

# Cəmiyyətdə qız uşağı niyə arzulanmır?

***BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin ekspertlərinin hesablamalarına görə, 2030-cu ildə əhalinin sayı 8,5 milyarda, 2050-ci ilə qədər 9,7 milyarda çata bilər, 2080-ci illərdə əhalinin pik həddi 10,4 milyard nəfərə çata bilər, bu rəqəm 2100-cü ilə qədər bu səviyyədə qalacaq. Uzun ömürlülüyə gəldikdə isə, 1950-ci illərdə dünya əhalisinin orta ömür uzunluğu təqribən 50 il idisə, 2019-cu ildə bu göstərici 72,8 yaşa yüksəlib. Lakin 2021-ci ildə COVID-19 pandemiyası səbəbindən bu rəqəm 71 yaşa düşüb.***



Ömür uzunluğunun artmasının nəticəsi əhalinin yaş strukturunda dəyişikliklər. Əgər 1950-ci illərdə 65 yaşdan yuxarı insanlar ümumi əhalinin 5%-ni 2050-ci ilə qədər bu rəqəmin artacağı proqnozlaşdırılır. Böyük Britaniya da daxil olmaqla bir sıra dövlətlər hələ də immiqrasiyanın köməyi ilə demoqrafik problemləri həll edirlər.

Bəzi ölkələr yeni doğulanlara qulluq, pulsuz uşaq bağçaları, nağd pul köçürmələri və yeni ana olmuş qadınların işə düzəlməsi üçün valideyn məzuniyyətinin uzadılması ilə doğum nisbətini stimullaşdırmağa çalışır. Amma bu tədbirlərin nə dərəcədə effektiv olduğunu söyləmək çətindir. Əhalinin artmasından və ya azalmasından asıllı olmayaraq qız uşaqlara o qədər də maraq göstərilməməsi, oğlan uşaqların daha çox arzu olunması heç kəsə sirr deyil. Bəs niyə cəmiyyət tərəfindən qız uşaqları sevilmir?

ARAŞDIRMA

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Təəssüf ki, dünyanın bir çox cəmiyyətlərində də qız uşaqlarına qarşı münasibət birmənalı deyil. Bəzi ailələrdə qız övladının varlığı valideynlər üçün yük kimi qəbul olunur. Bu düşüncənin çox qədim kökləri, ibtidai təməlləri var. Bəlkə elə buna görə ibtidai təfəkkürdən xilas ola bilməyən adamlar qız övladını daxilən çox sevsələr də, onu duz yükü qədər ağır bir yük kimi qəbul edirlər. Dönüb yaşadığımız cəmiyyətə baxsaq belə qız övladının üstündə hər zaman kölgələr görürük. Valideynlərini "gözükölgəli" etməsinlər deyə, onlar özləri hər zaman kölgədə qalırlar. Başqalarının kölgəsi altında varlığını qorumağa çalışan balaca, zərif və zəif çiçəklər, həyatdan qismən məhrum ikinci dərəcəli varlıqlar kimi yetişdirilmək bəzi mədəniyyətlərdə qız uşaqlarının qədərinə çevrilib. Elmin və mədəniyyətin işığıyla aydınlanan ailə mühitində isə qız uşağı ailənin başqa fərdləri ilə bərabər, hüquq və azadlıqlara sahib olmaqla yanaşı, həm də atanın ən çox etimad göstərdiyi əzizinə çevrilir. Heç şübhəsiz, dünyanın ən xoşbəxt qızları elə ataları tərəfindən dəstəklənənlərdir.

Valideynlik də, həyata dair digər bütün məsuliyyətlər kimi öyrənilən bir vəzifədir. Təəssüf ki, bizdə bu vəzifənin öhdəlikləri yanlış öyrədilir. Ta qədimdən xüsusilə də Şərq ölkələrində oğlan uşaqlarının dünyaya gəlməsi toy-bayram kimi qeyd olunur. Ailədə oğlan qızdan daha üstün görülür. Qədim tarixə nəzər salsaq biz görərik ki, İslam dini yaranana qədər ailədə qız doğulardısa o ya diri-diri basdırılar ya da ödürülərdi. Səbəb isə "qızın doğulması ailə üçün təhqirdir. Kişi olanın oğlu olar" və s. tipli fikirlər idi. Bu cür fikirlər demək olar ki, son dövrlərə qədər "qüvvə"də idi. Həta bir çox ölkələrdə hələ də mahiyyətini itirməmişdir.

### Qız övladı, yoxsa oğlan?

Adətən, evlənməmişdən öncə, yaxud ilk hamiləlikdə cütlüklər arasında bu mövzu haqqında belə bir müzakirə yaranır. Ata söyləyir:-Mən oğlan istəyirəm. Ana söyləyir:-Mən qız istəmədən bəzən bu münaqişəyə də çevrilir. Məlumdur ki, bu onların istəklərindən də asılı olan bir iş deyil. Oğlan nəslin davamçısıdır, oğlan olması şərtdir. Əslində, bu cür fikirlərin yaranması cahillikdən, insanların sosial-psixoloji baxımdan maariflənməməsindən irəli gəlir.

Müasir dövrdə oğlan və qız övladları arasında fərqin qoyulması əvvəlki illərə nisbətən o qədər də hiss olunmur. Bu, dövrlə bağlı olaraq elmin inkişafı, KİV-dən məlumatların əldə olunması, insanların maariflənməsi, savadlı nəslin yetişməsi, dünyagörüşün artması ilə əlaqədardır.

Vəfa sosial problemlərinin həllinə dəstək İB sədri Fatimə Hacıbəyli:" Əhali arasında qız uşaqlarına qarşı stereotiplər səngiməк bilmir.

Rəsmi məlumatlara görə, ölkə əhalisi arasında qadınların kişilərə nisbəti cüzi fərqlə azlıq təşkil edir. Amma müstəqil təhlilçilərə görə, son 15-20 ildə yeni doğulanlar arasında oğlan uşaqlarının sayının çox olması kimi davamlı bir tendensiyanı müşahidə edirik.

Məlumdur ki, Azərbaycanda ailələr oğul uşaqlarına üstünlük verirlər. Bunun bir çox səbəbi var. Əksər patriarxal cəmiyyətlərdə oğlan uşağı soyadın daşıyıcısıdır, yaşlı valideynlərin qayğısına qalandır, ailəyə maddi dəstək gətirəndir. Belə inanc var ki, qızlar bu vəzifələrin öhdəsindən gələ bilməzlər. Təbii ki, bu, bir stereotipdir, son illərdə cinsi selektiv abortlarla bağlı hallar artıb. Bioloji normaya əsasən, hər doğulan 100 qıza 105 oğlan nisbəti olmalıdır. Cəmiyyətdə qız uşaqlarına olan münasibəti dəyişməyin həll yolu qadın hüquqlarının müdafiəsini daha yüksək səviyyəyə qaldırmaqdır. "Problem insanların beynindədir, onlar hələ də qadınların da kişilərlə bərabər hüquqlu olduğu faktını qəbul etmək istəmirlər".

Mənim 2 qız və bir oğlan nəvəm var. Mənim oğlumun da qızı olanda mən sevincdən ağlamışdım. Ancaq təbii elə ailələr var ki, orada oğlan uşağı dünyaya gəlmirsə, o ailəyə sonsuz adı verirlər. Təbii ki, bu, çox absurd fikirdir. Bu gün qızlarımız dövlət strukturlarında çalışırlar. Azərbaycanda o qədər qürur duyulası xanımlar var. Mənim düşüncəmdə qız-oğlan fərq etmir, ən əsası xeyirli övlad olsun".

*Havar Şəfiyeva*



# Keçmiş prezident qızının 1 milyard dollarlıq əmlakına həbs qoyuldu

Anqolanın Ali Məhkəməsi maliyyə cinayətlərində şübhəli bilinən Anqolanın keçmiş prezidenti Xose Eduardo duş Santuşun böyük qızı İzabel duş Santuşun 1 milyard dollar dəyərində əmlakına həbs qoyulması barədə qərar çıxarıb. SİA xəbər verir ki, məhkəmə qərarını əsaslandıraraq qeyd edib ki, bu addım BMT-nin Korrupsiyaya qarşı Mübarizə Konvensiyası əsasında atılıb.

İzabel duş Santuşun xarici şirkətlər də daxil olmaqla, onlarla şirkətdəki payları həbs edilib. Tədbirlərin qabaqlayıcı xarakter daşıdığı vurğulanıb.

Qeyd edək ki, İzabel 1973-cü ildə Bakıda Anqolanın gələcək prezidenti, SSRİ-də təhsil almış Xose Eduardo duş Santuşun və onun birinci həyat yoldaşı Tatyananın ailəsində anadan olub. O, Anqola ilə birlikdə Rusiya vətəndaşlığına da malikdir. "Forbes" jurnalı 2020-ci ildə İzabelin şəxsi sərvətinin 2,2 milyard dollara çatdığını bildirib və onu müasir Afrikanın ən zəngin qadını adlandırıb.

# Yeni ildə metroların fəaliyyətində nə dəyişikliklər olacaq?

***"Ümumiyyətlə, sərnişindaşıma fəaliyyətlərində Nazirlər Kabinetinin pandemiya dövründə verdiyi qərarlar ilə tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında "Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov deyib.***



Onun sözlərinə görə, 2023-cü ildə metronun fəaliyyəti ilə bağlı yeni dəyişikliklərin olması gözlənilir. Bildiyimiz kimi, pandemiya müddəti yenidən artırılaraq mart ayının 1-nə qədər davam edəcək. Bununla bağlı məhdudiyyət olmayacağı təqdirdə, sərnişindaşıma fəaliyyətində hər hansısa bir dəyişiklik edilməsi gözlənilmir. Sadəcə olaraq, qrafiklə bağlı monitorinqlərin olması öz axarı ilə gedəcək və sərnişin axınına uyğun olaraq müvafiq tənzimləmələr həyata keçiriləcək. Əsas yeniliklərdən biri də bu qeyd etdiklərim olacaq".

*Ziya Hikmət oğlu*

## Yeməkdən dərhal sonra yorğunluğun səbəbi

Hazırda əksər insanlar yeməkdən sonra baş sıxılması, yorğunluq, halsızlıq hiss edir. Almaniyanın Mayns universitetinin alimləri yeməkdən sonra bu halın 2 səbəbini açıqlayıb.



Baku-post.az xəbər verir ki, ekspertlərin fikrincə, qida qəbulu qan dövranı və enerjini özünə çəkir. Bu zaman daha çox mədə-bağırsağa qan axını baş verir. Beyinə isə oksigen azalır. Bu da başda sıxılma, duman, yorğunluq, yuxululuq hissi verir. Digər əsas səbəb isə insulin direnci - qanda insulinin artıb, qlükozanın kəskin düşməsidir.

Eləcə də preddiabet və diabet xəstələrində yeməkdən sonra ağırlaşma olur. Amma bir çoxları bunu yeməklərdə, ümumi yorğunluqda görür, yeməkdən sonra şəkərin kəskin qalxıb, kəskin enməsini bir çoxları müayinələrdə belə tapa bilmir. İnsan hələ diabet olmaya bilər, amma diabet öncəsi vəziyyət yaranıb.

Əgər bu problem vaxtında diaqnoz olunmasa, beyin qan dövranı, yaddaş, göz damarları ilə bağlı problemlər yaşana bilər. Mümkün olan xəstəliklərdən biri də ürək problemidir, yeməkdən sonra ürək yüklənir, qanı qova bilmir, ritm pozulur.

## ELAN

**2013-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü olan İsmayılov Cəfər Elbrus oğlunun adına verilmiş 670625 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**

**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**